

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 05 - may 2021



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

**№ 5 - may 2021**

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**

**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şuşaya səfəri ....4
Prezident İlham Əliyev Ağdamda səfərdə olub ....9
9 May - Faşizm üzərində qələbə günüdür ....12
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....13
Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib ....14
Birinci vitse-prezident Mehriban Əliyeva Faşizm üzərində qələbə günü, Ramazan bayramı və Respublika günü münasibətilə paylaşımlar edib ....15
Prezident İlham Əliyev Bakı şəhərinin Suraxanı Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirak edib ....16

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Ümummilli Lider Heydər Əliyevin doğum günü ədliyyə orqanlarında qeyd olunub ....19
Ədliyyə və məhkəmə sisteminin inkişafı aparılan hərtərəfli islahatların real təzahürüdür (Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun “Milli Məclis” jurnalına müsahibəsi) ....20
Məhkəmə sistemində islahatlar davam edir ....30
Ədliyyə naziri Peterburq Beynəlxalq Hüquq Forumunda çıxış edib ....32
Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib ....33
Özbəkistan Azərbaycanın ədliyyə sahəsindəki innovasiyalara maraq göstərir ....33
Penitensiar xidmətdə Vətən müharibəsində iştirak etmiş əməkdaşlarla görüş ....35
Penitensiar xidmətin kursantları Hərbi Qənimətlər Parkında ....36
Məhkumların reinteqrasiyasında innovativ yanaşma ....36
“Ədliyyə Nazirliyinin beynəlxalq fəaliyyəti" mövzusunda onlayn brifinq ....38
Ədliyyə Akademiyasında ....39
Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzindədir ....41
Bələdiyyələrdə Gənclərlə iş və idman komissiyasının işinin gücləndirilməsi yolları müzakirə edilib ....42
Bələdiyyələrin hüquqi maarifləndirilməsi üzrə tədbirlər davam etdirilir ....43

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli 2632 nömrəli Sərəncamı ....44
“Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 286-VIQD nömrəli Qanunu ....44
“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 287-VIQD nömrəli Qanunu ....46
"İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 299-VIQD nörəli Qanunu ....49

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şuşaya səfəri




“Şuşa” yarımstansiyasının açılışı




“Xarı Bülbül” otelinin yenidənqurmadan sonra açılışı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 12-13-də Şuşada səfərdə olublar. Dövlətimizin başçısı bir sıra sosial obyektlərin açılışlarında və təməlqoyma mərasimlərində iştirak edib.**

Əvvəlcə 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyasının açılışı olub. Şuşa şəhərinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, şəhərin etibarlı, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə ötən ilin dekabrında "Şuşa" yarımstansiyasının və Füzuli rayonunun "Şükürbəyli" yarımstansiyasından başlayaraq 75 kilometr məsafədə 110 kilovoltluq "Şükürbəyli-Şuşa" hava elektrik verilişi xəttinin tikintisinə başlanılıb. Yarımstansiya məsafədən idarə olunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulmaqla tam rəqəmsallaşıb. Burada perspektiv inkişaf da nəzərə alınıb. Yarımstansiya və elektrik verilişi xəttinin tikintisinin çətin coğrafi şəraitdə aparılmasına baxmayaraq, ən qısa zaman ərzində yekunlaşıb. Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Şuşaya 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilişi fasiləsiz, növbəlilik prinsipi ilə 73 günə icra olunub ki, bu da nəinki Azərbaycan energetikası, regionun energetika tarixində rekorddur.

Ümumilikdə işğaldan azad olunmuş ərazilərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi istiqamətində iş-




**Şuşada yeni məscidin təməlinin qoyulması**



**“Xan qızı” bulağında**



**Şuşa Rəsm Qalereyasında görülən işlərlə tanışlıq**



**1 saylı ümumtəhsil məktəbinin təməlinin qoyulması**

lər uğurla davam edir. Hazırda Kəlbəcər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdamda, ümumilikdə, 9 yarımstansiya və onları əlaqələndirən 110 kilovoltluq ötürmə xətlərinin tikintisi gedir. Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərin "Yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı qarşıya qoyduğu tələblərə uyğun olaraq, Suqovuşandakı 2 kiçik su elektrik stansiyasında yenidənqurma, təmir və bərpa işləri yekunlaşıb. Yaxın vaxtlarda isə Kəlbəcərdə 2 kiçik su elektrik stansiyasının tikinti və bərpasına başlanılacaq.

"Xarı Bülbül" otelinin yenidənqurmadan sonra açılışında iştirak edən dövlətimizin başçısı oteldə yaradılan şəraitlə tanış olub. Məlumat verilib ki, oteldə ümumilikdə 49 otaq var. Onların hamısı qonaqların qalması və rahat istirahət etməsi üçün bütün zəruri infrastrukturla təchiz olunub. Bu cür obyektlərin istifadəyə verilməsi Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın turizm potensialının möhkəmləndirilməsində çox mühüm rol oynamaqla yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə, o cümlədən tarixi Şuşa şəhərində icra olunan sosial layihələrin ardıcıl və sürətlə davam etdiyini göstərir.

Dövlət başçısı, birinci xanım və qızları otelin nəzdindəki 48 mənzilli korpusda və kotteclərdə yaradılan şəraitlə də tanış olublar. Sonra isə Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada olublar. Burada görülən bərpa işləri ilə bağlı məlumat verilib ki, binada səmərəli fəaliyyət üçün hərtərəfli şərait yaradılacaq və inzibati bina ən müasir səviyyədə yenidən qurulacaq.

Həmin gün Şuşada yeni məscidin təməli qoyulub. Məscid dini ocaq və modern memarlıq nümunəsi kimi göz oxşayacaq. İki minarəli, mozaika ilə bəzədiləcək gümbəzi olan məscidin layihələndirilməsi azərbaycanlı və italyan memarlarla birgə həyata keçirilib. Məscidin xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Bu memarlıq elementi Şuşanın firavan və uğurlu gələcəyinə əminliyi, keçmişlə bu gün arasındakı əlaqəni təcəssüm etdirəcək.

Məscidin təməlini qoyan Prezident İlham Əliyev bildirib ki, Şuşa şəhərində vaxtilə 17 məscid olub və mənfur düşmən onların hamısını dağıdıb. Üç məscid yarıdağıdılmış vəziyyətdə idi - Yuxarı və Aşağı Gövhərağa və Saatlı məscidləri.














**Şuşada Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı**

Onların da təmiri ilə bağlı göstəriş verilib. Yuxarı Gövhərağa məscidi artıq təmirdən çıxıb. Dövlət başçısı yeni tikiləcək məscidin memarlığı ilə bağlı təklifini bildirib ki, məscidin forması 8 rəqəmini əks etdirməlidir. Çünki noyabrın 8-də biz Şuşanı işğalçılardan azad etdik və 8 noyabr Azərbaycanda artıq rəsmi olaraq Zəfər Günüdür. Məscidin iki minarəsi 11 rəqəmini əks etdirməlidir. Onbirinci ayda Şuşa və Qarabağ tam işğaldan azad edildi.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla və Arzu Əliyevalar Şuşada xan qızı Natəvanın sarayının qarşısındakı əraziyə baxış keçiriblər. Şuşa şəhərində Xan qızı Natəvanın evi də işğal dövründə dağıdılıb. Azərbaycanda yaradılan ilk uşaq musiqi məktəbi olan Şuşa Musiqi Məktəbi Xan qızı Natəvanın evində fəaliyyətə başlamışdı. XVIII əsrə aid tarix-memarlıq abidəsi erməni vəhşiliyinin, vandalizminin qurbanı olub.

Məlumat verilib ki, işğal zamanı binaya dəyən ziyanın qiymətləndirilməsinə artıq başlanılıb. Bu prosesdən sonra burada bərpa işlərinə start veriləcək.

"Xan qızı" bulağında olan

dövlətimizin başçısı və ailə üzvləri bulağın suyundan içiblər. Sonra Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi bina ilə tanış olublar. Bildirilib ki, bu binada Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Ölkə əhəmiyyətli memarlıq abidəsi XVIII əsrə aiddir. Dövlətimizin başçısı görüləcək işlərlə bağlı tapşırıqlarını verib.

Ölkə Prezidenti, birinci xanım və qızları Şuşa Rəsm Qalereyasında görülən işlərlə tanış olublar. Qalereyada aparılan işlər barədə məlumat verilib ki, burada qaytarılmış Qarabağ xalçalarının sərgisi, "Qarabağ işğaldan əvvəl və sonra", "Azərbaycan rəssamlarının motivlərində Qarabağ" adlı sərgilərin keçirilməsi nəzərdə tutulur.

Dövlətimizin başçısı Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməlini qoyub. Məlumat verilib ki, 1830-cu ildə Azərbaycanda və Cənubi Qafqazda ilk dünyəvi məktəbin bünövrəsi məhz burada qoyulub. 1980-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bu məktəbin 150 illik yubileyi qeyd olunub. İşğala qədər 1 saylı məktəb kimi fəaliyyət göstərən bu təhsil ocağını da erməni vandalları tamamilə dağıdıblar. Yeni 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrılıb.

Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa "Xarıbülbül" musiqi festivalına ev sahibliyi edib. Qədim mədəniyyət beşiyi olan Şuşa 29 ildən sonra yenə doğmalarını, qonaqlarını qarşılayıb.



Şuşada Yuxarı Gövhərağa məscidində

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" musiqi festivalına gəliblər.

Dövlətimizin başçısı festivalın açılışında çıxış edərək uzun fasilədən sonra Cıdır düzündə - hər birimiz üçün müqəddəs olan Şuşada "Xarıbülbül" festivalı keçirilməsini ölkəmizin tarixində əlamətdar hadisə olmaqla şəhidlərimizin əziz xatirəsinə həsr olunduğu söyləyib. Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Bu gözəl ənənənin bərpa olunaraq bundan sonra "Xarıbülbül" festivalının Şuşada hər il keçiriləcəyini bildirən ölkə Prezidenti Vətən müharibəsinin bir daha Azərbaycanda bütün xalqların dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşadığını göstərdiyini vurğulayıb, 44 günlük müharibənin Azərbaycanın tam Qələbəsi ilə nəticələndiyini, işğalçıların qədim Azərbaycan torpaqlarından qovulduğunu və azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağının ucaldıldığını qeyd edib. Bildirib ki, 44 günlük müharibə bizim şanlı tariximizdir.

Azərbaycan xalqının milli sərvəti olan Şuşanın gələn il 270 illiyinin qeyd ediləcəyini söyləyən Prezident İlham Əliyev Şuşanın Pənahəli xan tərəfindən 1752-ci ildə təməlinin qoyulduğunu və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlıların yaşadıqlarını diqqətə çatdırıb. Qeyd edib ki, ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi. Şuşa 28 il yarım əsarətdə idi, ancaq

əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu.

Diqqətə çatdırıb ki, bugünkü tədbir bir daha Şuşaya qayıtdığımızı və bundan sonra burada əbədi yaşayacağımızı göstərir. Şəhərdə bərpa işləri başlayıb, Yuxarı Gövhərağa məscidi artıq təmir olunubdur. Ramazan bayramı ərəfəsində Şuşada yeni möhtəşəm məscidin təməli qoyulub. Ermənilər tərəfindən qurudulmuş "Xan qızı Natəvan" bulağından bu gün su gəlir. Dövlət başçısı Cıdır düzündə - hər bir azərbaycanlı üçün müqəddəs olan yerdə yığışaraq bu musiqi bayramını, bu birlik bayramını, bu qayıdış bayramını, bu ləyaqət bayramını qeyd etdiyimizi söyləyib.

Sonra "Xarıbülbül" festivalı başlayıb. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva festival ifaçılarının çıxışlarını dinləyiblər.

Konsertdən sonra jurnalistlərlə görüşən Prezident İlham Əliyev onlarla söhbət edib, xatirə şəkli çəkdirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı mayın 13-də qala-konsertlə başa çatıb.

Qala-konsertdə Xalq artistləri Rauf Abdullayev, Yalçın Adıgözəlov, Əməkdar artist Fuad İbrahimov və Murtuza Bülbülün dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Xalq artisti Gülbacı İmanovanın bədii rəhbərliyi ilə Azərbaycan Dövlət Xor Kapellası çıxış ediblər. Konsertdə Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun, Qara Qarayevin, Ələkbər Tağıyevin, Müslüm Maqomayevin, Niyazinin, Tofiq Quliyevin, Vasif Adıgözəlovun və digər bəstəkarların əsərləri təqdim olunub.

Festival çərçivəsində Xalq artistləri Alim Qasımov, Azərin, Dinarə Əliyeva, Elçin Əzizov, Əlixan Səmədov, Fərhad Bədəlbəyli, Mənsum İbrahimov, Murad Adıgözəlzadə, Natiq Şirinov, Polad Bülbüloğlu, Samir Cəfərov, Teyyub Aslanov, Yusif Eyvazov, Əməkdar artistlər Fərqanə Qasımova, Mirələm Mirələmov, Sahib Paşazadə, Şəhriyar İmanov, Şirzad Fətəliyev və digər ifaçıların çıxışları da alqışlarla qarşılanıb.

Konsertdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtı ilə işğal altında olan ərazilərimiz haqqında söylədiyi "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik" fikirlərini və Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqımıza müraciətində dediyi "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" sözlərini əks etdirən videoçarx təqdim edilib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsindən sonra ilk dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı incəsənət xadimlərinin "Azərbaycan" mahnısının birgə ifası ilə yekunlaşıb.

Konsert bitəndən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalda iştirak edən incəsənət xadimləri ilə görüşüblər. Cıdır düzündə hamı birlikdə "Qarabağ Azərbaycandır!" söyləyib.

Səfər çərçivəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 13-də Şuşada Yuxarı Gövhərağa məscidində olublar. Məsciddə aparılan bərpa işləri ilə bağlı məlumat verilib ki, burada bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. 1768-1769-cu illərdə inşa edilən bu məscid də işğal dövründə erməni vandalizminin qurbanı olub.

# Prezident İlham Əliyev Ağdamda səfərdə olub



Bərdə-Ağdam avtomobil yolunun təməlinin qoyulması



Ağdam şəhər meşə-parkında dağdağan ağaclarının əkilməsi mərasimində



Ağdam Sənaye Parkının təməlinin qoyulması



Ağdamda Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksində





Ağdamda Zəfər muzeyinin və açıq hava altında İşğal muzeyinin təməlinin qoyulması

**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdamda səfərdə olub.**

Dövlətimizin başçısı Bərdə-Ağdam avtomobil yolunun təməlqoyma mərasimində iştirak edib. Bu layihə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən işğaldan azad edilmiş ərazilərdə yol infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlərin tərkib hissəsidir. 14 kilometrlik hissəsi Bərdə şəhərindən və bir neçə yaşayış məntəqəsindən keçəcək uzunluğu 44.5 kilometr olan bu avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olacaq. Avtomobil yolu Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, bu rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edəcək. Prezident İlham Əliyev yolun təməlini qoyub.

Ölkə rəhbəri Ağdam şəhər meşə-parkında dağdağan ağaclarının əkilməsi mərasimində iştirak edib, ərazidə dağdağan ağacı əkib. Məlumat verilib ki, burada ilkin olaraq şəhər sakinləri və qonaqları üçün 125 hektarlıq böyük meşə parkı salınacaq. Bərpa olunacaq Ağdam kanalı şəhərin içindən keçəcək və onun suyu burada yaradılacaq gölə töküləcək.

Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməlqoyma mərasimində iştirak edən dövlətimizin başçısına məlumat verilib ki, ABŞ-ın "Gensler", Azərbaycanın "Azərbaycan inkişaf" və Türkiyənin "URAL mühəndislik" şirkətləri binanın layihələndirilməsinə cəlb olunub. Binanın fasadında Ağdamın yerli ağ daşından və Avropa memarlıq elementlərindən istifadə ediləcək. Mənzillər 1, 2, 3, 4 və 5 otaqlı olacaq.

Dövlətimizin başçısı Ağdam Sənaye Parkının təməlqoyma mərasimində də iştirak edib.





**Ağdam şəhərinin baş planının ictimaiyyətə təqdimatı və şəhərin bərpasının təməl daşının qoyulması**



**Qiyaslı məscidində**




**Şahbulaq qalasında**

Sənaye Parkı qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrinə bölünəcək. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili də planlaşdırılır.

Prezident İlham Əliyev Ağdamda Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksində olub. Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq tikililərindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın imarətidir. Dövlətimizin başçısına imarət barədə məlumat verilib, Pənahəli xanın atlarının saxlanıldığı, stadionun, kompleksin yerləşdiyi, xanın işlədiyi, yaşadığı yerlər, onun və İbrahim xanın dağıdılmış türbələri, məzarlıqlar göstərilib.

XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, Pənahəli xanın imarəti də adlandırılıb. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Buradan tövlə kimi istifadə olunub. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinin canlı şahididir. Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xanın türbələri və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də burada yerləşir.

Ağdamda Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaq. Prezident İlham Əliyevə yeni muzeylər barədə məlumat verilərək İtaliya şirkəti tərəfindən konsepsiyası hazırlanmış Zəfər və İşğal muzeylər kompleksinin strukturu nümayiş etdirilib.

Həmin gün dövlət başçısı Ağdam şəhər 1 saylı məktəbin yeni binasının da təməlini qoyub. Məlumat verilib ki, məktəb Qarabağ bölgəsinin ən qədim məktəbi hesab olunur. Əslində, Əsgər bəy Eyvazov tərəfindən 1883-cü ildə əsası qoyulub. O, müxtəlif yerlərdə fəaliyyət göstərib. 1904-cü ildə

həmin bu binaya, bu əraziyə gəlib və 1949-cu ilə kimi burada qalıb. Məktəb 1993-cü ildə erməni işğalı zamanı tamamilə dağıdılıb. İkimərtəbəli bina olub. Amma təqdim olunan layihədə üçmərtəbəli bina nəzərdə tutulur. Plana uyğun olaraq, inzibati hissə, tədris korpusları, idman meydançası, texniki zona təşkil olunacaqdır. Məktəb 960 nəfər şagird üçündür. Eyni zamanda, 18 sinif otağı, 37 fənn kabineti, kimya, fizika, biologiya laboratoriyaları yaradılacaq. Məktəbdə təhsil üçün hər cür şərait, bütün texniki imkanlar olacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Ağdam şəhərinin baş planı təqdim olunub. Dövlətimizin başçısı əvvəlcə Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Görüşdə çıxış edən Prezident İlham Əliyev 28 May - Respublika Günü münasibətilə bütün Azərbaycan xalqını təbrik edib, xoşbəxtlik və firavanlıq arzulayıb.

İkinci və Birinci Qarabağ müharibələrində Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ağdam şəhərinin Baş Planının bu gün ictimaiyyətə təqdim olunduğunu deyən ölkə başçısı qeyd edib ki, milli bayramımız olan Respublika Günündə burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq.

Prezident İlham Əliyev işğal dövründə doqquz dəfə Ağdam rayonunda olduğunu xatırladaraq şəhərin işğal altında olduğu üçün rayonun mərkəzini Quzanlı qəsəbəsində müəyyən etdiyini söyləyib, rayonda bir çox sosial layihələrin icra edildiyini, bir çox məktəblərin, Muğam Mərkəzinin, uşaq xəstəxanasının, mərkəzi rayon xəstəxanasının, Olimpiya Mərkəzinin, infrastruktur layihələrinin icra edildiyini vurğulayıb. Bildirib ki, qazlaşdırma təxminən 100 faizdir, elektrik enerjisi, su ilə təchizat təmin edilib, 150-dən çox artezian quyusu qazılıb.

Ali Baş Komandan müharibə barədə də danışıb, qırx dörd günlük müharibənin bizim gücümüzü, Silahlı Qüvvələrimizin rəşadətini, qəhrəmanlığını, xalqımızın birliyini göstərdiyini qeyd edib. Ermənistan tərəfinin öz təxribatçı əməllərindən əl çəkmədiyini, son günlər ərzində Azərbaycan-Ermənistan sərhədi ərazisində Ermənistan ordusu tərəfindən törədilmiş təxribatın cavabsız qalmadığını vurğulayıb, sərhədlərimizin bundan sonra möhkəmləndiriləcəyini diqqətə çatdırıb. Həmçinin Ağdam şəhərinin bərpası ilə bağlı görülən işlərə toxunaraq nəzərdə tutulmuş bütün məsələlərin öz həllini tapacağına əminliyini ifadə edib.

Sonra ictimaiyyət nümayəndələri çıxış ediblər, Ağdam şəhərinin baş planı birgə müzakirə olunub. Dövlətimizin başçısı şəhərin bərpasının təməl daşını qoyub.

Daha sonra xanəndələr birgə muğam ifa ediblər. Xatirə şəkilləri çəkdirilib. Dövlətimizin başçısı ərazidə ağac əkib.

Prezident İlham Əliyev Ağdama səfəri çərçivəsində Qiyaslı məscidində olub. Bildirilib ki, ermənilər burada da heyvanlar saxlayıb, gedəndə də yandırıblar və xeyli ziyan dəyib. Bunlar bərpaçıdan verilən ilkin sənədlərdir.

Bu məscid də Qarabağda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biridir. Ağdam rayonunun Qiyaslı kəndində bu dini abidə XVIII əsrə aiddir. Qiyaslı məscidi 2001-ci ildən yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına götürülüb.

Ağdamda Şahbulaq qalasında olan dövlətimizin başçısına abidənin yenidənqurma planı təqdim edilib.

Bildirilib ki, XVIII əsrə aid bu qala Qarabağ ərazisindəki ən məşhur abidələrdən biridir.

Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Elmi ədəbiyyatda "Şahbulaq qəsri" adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi. Pənahəli xan Şuşa qalasını inşa edənədək Şahbulaq qalası Qarabağ xanlığının inzibati mərkəzi olub. Ermənilər Ağdamı işğal etdikdən sonra bir sıra abidələrimiz kimi Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, yaxınlıqdakı məscidi isə kilsə kimi təqdim ediblər.

# 9 May - Faşizm üzərində qələbə günüdür

**Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 76 il ötür.**

Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz olunub.





Bu müharibədə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman hörmətlə anılıb. Xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə vet-

eranlarına xüsusi diqqət və qayğı göstərib, onları "xalqımızın qızıl fondu" adlandırıb. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayır, 9 May - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir.

Bu il Azərbaycan xalqı ilk dəfədir ki, 1941-1945-ci illər faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunmuş böyük Zəfərin sevinc hissi ilə birgə ikiqat qürur hissi ilə qeyd edir. Xalqımızın 30 il uğrunda mübarizə apardığı ədalət, nəhayət Zəfər çaldı və Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa etdi.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə və 1941-1945-ci illər müharibəsində canlarından keçmiş bütün oğul və qızlarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

# Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Mübarək Ramazan bayramı münasibətilə sizi ürəkdən təbrik edir, hamınıza səmimi arzu və diləklərimi yetirirəm.

Ən ülvi hissləri və nəcib niyyətləri özündə təcəssüm etdirən, yardımsevərlik və paylaşmaq kimi yüksək əxlaqi dəyərlər aşılayan Ramazan ayı artıq başa çatır. Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu bu mübarək ayda hər bir müsəlman Allah qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanaraq xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının sevincini yaşayır.

Müsəlman dünyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycan yüz illərdir ki, ayrı-ayrı din və etiqad mənsublarının əmin-amanlıq şəraitində yaşadığı, dinlərarası həmrəyliyin və əməkdaşlığın mövcud olduğu nadir məkanlardandır. Etnik-mədəni müxtəlifliyi ilə seçilən cəmiyyətimizdə qarşılıqlı hörmət və etimada əsaslanan dözümlülük mühitinin, demokratik birgəyaşayışın, vəhdət və harmoniyanın bərqərar olmasında bəşəriyyəti daim sülhə, humanizmə, qardaşlıq və bərabərliyə dəvət edən İslam dini müstəsna rol oynamışdır. Hazırda ölkəmizdə vicdan və etiqad azadlığının, dövlət-din münasibətlərinin mütərəqqi tarixi ənənəyə və beynəlxalq hüquq normalarına uyğun təmin edilməsi, milli-mənəvi dəyərlərimizin təbliği və təşviqi dövlət siyasətimizin əsas prioritetlərindəndir.

Əziz bacı və qardaşlarım!

Xalqımızın birliyini daha da gücləndirən, mənəvi-əxlaqi zənginliyin təntənəsinə çevrilən mübarək Ramazan günlərində ölkəmizin firavanlığı və tərəqqisi naminə etdiyiniz dualara qatılır, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının ölməz xatirəsini ehtiramla yad edirəm. Əminəm ki, qədirbilən xalqımız onların müqəddəs adını həmişə uca tutacaq, şəhid ailələrinə, qazilərimizə diqqət




və qayğısını heç vaxt əsirgəməyəcəkdir.

Bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Allah tutduğunuz orucu, dua və niyyətlərinizi qəbul etsin!

Ramazan bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 11 may 2021-ci il*

# Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib






**Mayın 10-da xalqımızın xilaskar oğlu, ümummilli lider Heydər Əliyevin anadan olmasından 98 il ötür.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət ediblər.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev bütün mənalı ömrü boyu qüdrətli Azərbaycan yaratmaq uğrunda çalışıb. Dahi Liderin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Ümummilli lider Heydər Əliyev öz fəaliyyəti ilə vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Ulu Öndərin yaratdığı və inkişaf etdirdiyi Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı düşmən tapdağından azad edib, xalqımız tarixi hədəflərinə qovuşub, Vətənimiz bütövləşib. Bununla da "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" deyən Ulu Öndərin ən böyük arzularından biri də həyata keçib, Azərbaycanın ərazi bütövlüyü təmin olunub. Xalqımız böyük dövlət xadimi, müasir müstəqil Azərbaycanın banisi Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünü 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbənin doğurduğu sevinc hissi ilə qeyd edir.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil, birinci xanım Mehriban Əliyeva gül dəstəsi qoyub, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Azərbaycan Respublikasının dövlət himni səslənib.

Sonra dövlətimizin başçısı və xanımı Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoyublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüblər.

Azərbaycan tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin mənalı ömrünün əsas qayəsi Vətənə, xalqa məhəbbətdir. Məhz bu keyfiyyətlərinə görə Heydər Əliyev xalqımızın qəlbində əbədi məskən salıb. Onun qurduğu dövlət indi qalib dövlətdir və bu dövlətin dəmir yumruğu yeni reallıqlar yaradıb.

# Birinci vitse-prezident Mehriban Əliyeva Faşizm üzərində qələbə günü, Ramazan bayramı və Respublika günü münasibətilə paylaşımlar edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 9 May - faşizm üzərində Qələbə Günü münasibətilə paylaşım edib.

Paylaşımda deyilir:

"Əziz veteranlar!

Sizə ən xoş arzularımı və faşizm üzərində Qələbə Günü münasibətilə səmimi təbriklərimi çatdırıram! Siz misilsiz igidlik, cəsarət, yenilməzlik və şücaət nümayiş etdirərək bizim dinc gələcəyimizi təmin etmisiniz. Biz sizin qəhrəmanlıq irsinizə sədaqətimizi daim qoruyub saxlayacağıq və onu nəsillərdən-nəsillərə ötürəcəyik! Biz sizi çox sevirik, sizinlə fəxr edirik! Bu əlamətdar gündə hər birinizə möhkəm cansağlığı, ölkəmizə - sülh və əmin-amanlıq arzulayıram! Qələbə Gününüz mübarək!".







Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Ramazan bayramı ilə bağlı paylaşım edib.

Paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Təsviredilməz qürur və sevinc hissi ilə bizim doğma Şuşa şəhərimizdən hər birinizə ən xoş arzularımı və müqəddəs Ramazan bayramı münasibətilə səmimi təbriklərimi çatdırıram! Qoy, insanları sülhə, birliyə, həmrəyliyə, xeyirxahlığa və mənəvi kamilliyə dəvət edən bu bayram hər birinizin ocağına sağlıq, qarşılıqlı anlaşma və əmin-amanlıq gətirsin!

Vətən uğrunda həlak olmuş şəhidlərimizin xatirəsini ehtiramla yad edirəm. Onların doğma və yaxınlarına səbir diləyirəm. Uca Tanrı mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin!

Bütün dünya müsəlmanlarını Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm, Allahdan onların dua və oruclarının qəbul olunmasını diləyirəm.

Dərin hörmət və sevgilərlə,
Sizin MEHRİBAN".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində 28 May - Respublika Günü münasibətilə paylaşım edib.

Paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Sizi 28 May - Respublika Günü münasibətilə təbrik edirəm, hər birinizə ən xoş arzularımı çatdırıram!

Qoy Azərbaycanın müstəqilliyi və xalqımızın azadlığı əbədi olsun! Qoy ölkəmizdə həmişə sülh və əmin-amanlıq hökm sürsün!

Vətən uğrunda həlak olmuş şəhidlərimizin nurlu xatirəsini ehtiramla yad edirəm. Sizin hər birinizə möhkəm cansağlığı, səadət, xoş günlər və sevgi, doğma Azərbaycanımıza sülh, firavanlıq və tərəqqi arzulayıram!".



# Prezident İlham Əliyev Bakı şəhərinin Suraxanı Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirak edib





**Mayın 29-da Bakı şəhərinin Suraxanı Rayon Məhkəməsinin yeni inzibati binası istifadəyə verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev binanın açılışında iştirak edib.

Ədliyyə naziri Fikrət Məmmədov dövlətimizin başçısına binada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, bu binanın istifadəyə verilməsi ilə hakimlərin sosial müdafiəsi və məhkəmələrin təminatı yaxşılaşdırılıb, innovativ və rəqəmsal texnologiyaların tətbiqi genişləndirilib. "Elektron məhkəmə" vasitəsilə məhkəmə prosesində videoəlaqə ilə iştirak imkanı yaradılaraq karantin rejimində məhkəmə işlərinə onlayn qaydada baxılması mümkün olub. Bu sistemin tətbiqi ilə digər





orqanlarla inteqrasiya hesabına sənədlər ani vaxt rejimində əldə edilir. "Mobil məhkəmə" tətbiqi vasitəsilə isə smartfonla sənədlər və qərarlarla məhkəməyə gəlmədən tanış olmaq, əlavə məlumat təqdim etmək mümkündür. Zallarda quraşdırılan "Femida" sistemi vasitəsilə proseslərin daha dəqiq və sürətlə protokollaşdırılması, audio-video yazısı aparılır.

Diqqətə çatdırıldı ki, digər müasir məhkəmə binalarında olduğu kimi, burada da bina inzibati və ictimai zonalara bölünür. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulub. İcra məmurları, dövlət ittihamçıları və vəkillər də ictimai zonadan istifadə edəcəklər. Bununla da hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər.

Prezident İlham Əliyevə Masallı Məhkəmə Kompleksi barədə də məlumat verildi. Bildirildi ki, Masallı Məhkəmə Kompleksi dövlətimizin başçısının tapşırığı ilə tikilən Masallı "ASAN Həyat" kompleksinin və Olimpiya İdman Kompleksinin yerləşdiyi ərazidə inşa edilib. Kompleksdə rayon məhkəməsi ilə yanaşı, kommersiya və inzibati məhkəmələr, o cümlədən Şirvan Apellyasiya Məhkəməsi tərəfindən bu bölgəyə aid işlərə yerində baxılacaq. Burada











yaradılan müasir şərait bölgənin 1 milyon 700 min sakininin əlçatanlığına və onlara keyfiyyətli məhkəmə xidmətlərinin göstərilməsinə hərtərəfli imkan yaradıb.

Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən ədliyyə sahəsində müasir çağırışlara uyğun islahatların aparılması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. Ölkəmizdə yeni məhkəmə binalarının inşası bu tədbirlərin tərkib hissəsidir.







# Ümummilli Lider Heydər Əliyevin doğum günü ədliyyə orqanlarında qeyd olunub





**Mayın 10-da Ədliyyə Nazirliyinin rəhbərliyi Fəxri xiyabana gələrək müasir Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyaraq sonsuz ehtiramlarını bildiriblər. Həmçinin Akademik Zərifə xanım Əliyevanın məzarı önünə tər çiçəklər düzülüb.**

Ulu Öndərin anadan olmasının 98-ci ildönümü münasibətilə ədliyyə orqanlarında xüsusi karantin rejiminə əməl olunmaqla tədbirlər təşkil edilib, əbədiyaşar liderin nazirlikdəki büstü önünə gül səbəti qoyulub, əziz və işıqlı xatirəsi yad olunub.

Ədliyyə naziri Fikrət Məmmədov Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yolundan və zəngin dövlətçilik fəaliyyətindən bəhs edərək Ulu Öndərin əsasını qoyduğu tərəqqi yolunun dövlət başçısının rəhbərliyi ilə uğurla inkişaf etdirildiyini, dövlətimizin iqtisadi, siyasi, hərbi cəhətdən möhkəmləndiyini bildirib. Dahi rəhbərin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində mühüm xidmətlərini qeyd edərək ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Ulu Öndərin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirdiyini, doğma torpaqlarımızın erməni işğalından azad edildiyini böyük qürur hissi ilə vurğulayıb, aparılan nəhəng bərpa-quruculuq işlərindən danışıb.

Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə Heydər Əliyev Fondunun sosial-iqtisadi inkişafa xidmət edən və azad edilmiş ərazilərin bərpası ilə bağlı layihələrin reallaşmasında mühüm fəaliyyəti qeyd olunub. Dövlət başçısının 7 may 2021-ci il tarixdə imzaladığı Sərəncamla Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçiriləcək "Xarıbülbül" musiqi festivalının əhəmiyyəti vurğulanıb.

Gənc ədliyyə işçiləri və könüllüləri ilə Ulu Öndərin doğum günü münasibətilə "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda onlayn görüş keçirilib, bir qrup gənc bu ərəfədə könüllü fəaliyyətə cəlb olunub.

Nazirliyin rəhbər işçiləri tərəfindən Ümummilli Liderə həsr olunan bu tədbirlərdə, o cümlədən "Heydər Əliyev və Azərbaycanda yerli özünüidarəetmə" mövzusunda videokonfransda çıxış edilib, dahi liderin yüksək dövlətçilik amallarına daim sadiq qalan ədliyyə işçiləri ölkə başçısının ətrafında sıx birləşərək üzərlərinə düşən vəzifələri böyük əzm və məsuliyyətlə yerinə yetirəcəklərini söyləyiblər.

Həmçinin Heydər Əliyev muzeyində zəngin və maraqlı ekspozisiyalarla tanışlıq olub, kinozalda filmlər, eləcə də foto və video slaydlar izlənilib. Ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilib, nazirliyin sosial şəbəkə səhifələrində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən materiallar paylaşılıb.

*Azərbaycan Respublikası Milli Məclisinin analitik informasiya jurnalı olan "Milli Məclis" jurnalı ölkəmizin məhkəmə-hüquq sistemindəki islahatlar və tətbiq olunan innovasiyalar, həmçinin 44 günlük Vətən müharibəsində qazanılmış Böyük Qələbə nəticəsində torpaqlarımızın 30 illik erməni işğalından azad olunması ilə qarşıda müəyyən edilmiş vəzifələr və digər mühüm məsələlər barədə respublikamızın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovdan müsahibə almışdır. Həmin müsahibə "Milli Məclis" jurnalının 2021-ci il mart-aprel buraxılışında dərc olunmuşdur. Müsahibənin mövzusunun aktuallığı və ictimai əhəmiyyəti nəzərə alınaraq mətnini oxucularımıza təqdim edirik.*

# Ədliyyə və məhkəmə sisteminin inkişafı aparılan hərtərəfli islahatların real təzahürüdür

**- Cənab nazir, ötən il Qələbə ili kimi yaddaşlarda qaldı. Bu Qələbəni həm də dövlətimizin hərtərəfli inkişafı şərtləndirmişdir. Bu mənada ədliyyə sahəsində islahatlar, o cümlədən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı xüsusi qeyd olunmalıdır. Fərmandan irəli gələrək ötən dövrdə məhkəmə-hüquq sisteminin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər barədə fikirləriniz maraqlı olardı.**

- İlk öncə, müsahibə üçün təşəkkürümü bildirirəm. Fərəhli haldır ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində xalqımızın Böyük Qələbəsi ilə doğma torpaqlarımız erməni işğalından azad edilərək ərazi bütövlüyümüz bərpa olunub və artıq ölkəmiz böyük quruculuq dövrünə qədəm qoyub.




Şübhəsiz ki, cənab Prezidentin ölkə başçısı kimi 17 illik fəaliyyəti ümummilli lider Heydər Əliyevin yaratdığı müasir Azərbaycan dövlətinin daha da möhkəmlənməsinə, onun iqtisadi və hərbi cəhətdən qüdrətlənməsinə yönələrək bu möhtəşəm qələbəmizi şərtləndirib. Dövlət başçısının qeyd etdiyi kimi, "Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır". Nüfuzlu beynəlxalq maliyyə qurumlarının hesabatlarında ölkəmizin inklüziv inkişaf indeksi üzrə 3-cü yerdə olması, dövlətin siyasi sabitliyi təmin etməsinə və hökumətin uzunmüddətli strategiyasına görə 10-11-ci yerlərdə qərarlaşması və bir daha dünyanın ən islahatçı 10 ölkəsi sırasına daxil edilməsi bunun əyani təzahürüdür.

Eyni zamanda, insanların rifahının yaxşılaşması, sosial xidmətlərin asan, şəffaf və vətəndaş məmnunluğu şəraitində göstərilməsi sahəsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə önəmli layihələrin gerçəkləşməsi xüsusi qeyd olunmalıdır.

Ədliyyə və məhkəmə sisteminin inkişafı da cənab Prezidentin rəhbərliyi ilə aparılan hərtərəfli islahatların real təzahürü kimi qiymətləndirilməlidir.

Dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ədliyyə və məhkəmə sistemi üçün mühüm "yol xəritəsi" olmaqla bu sahədə islahatların yeni mərhələdə davamına rəvac vermişdir. Artıq Fərmanın qəbulundan iki il ötür və onun icrası ilə bağlı bu müddət ərzində kompleks qanunvericilik, institusional və praktiki tədbirlər görülmüşdür.

İlk növbədə, Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası, Ali Məhkəmə və Baş Prokurorluğun məsul vəzifəli şəxslərindən ibarət xüsusi işçi qrupu yaradılaraq Fərmanda qoyulmuş tapşırıqlar üzrə təhlillər aparılmış, beynəlxalq təcrübə öyrənilmiş, kommersiya məhkəmələrinin təşkili, cəza siyasətinin humanistləşdirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması və digər məsələlərlə bağlı 40-dək normativ aktın layihəsi işlənib hazırlanmış və artıq əksəriyyəti ölkə Prezidentinin təşəbbüsü ilə Milli Məclis tərəfindən qəbul edilmişdir.

Həmçinin məhkəmə və digər orqanların qərarlarının icrası işinin yaxşılaşdırılması üzrə zəruri tədbirlər görülmüş, icra sahəsində fəaliyyəti tənzimləyən normativ aktların sistemləşdirilməsi məqsədilə ilk dəfə olaraq İcra Məcəlləsinin, habelə alternativ mexanizmlərin, o cümlədən özəl icranın tətbiqi ilə bağlı "Özəl icra haqqında" Qanunun layihəsi işlənib hazırlanmışdır. Bu sahədə xarici təcrübənin öyrənilməsi üçün beynəlxalq təşkilatlarla səmərəli əlaqələr qurulmuş, bu institutun ölkəmizdə tətbiqinin mümkünlüyü müəyyən edilmişdir.

Bununla yanaşı, məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən özəl ekspertizanın tətbiqi ilə bağlı qabaqcıl beynəlxalq təcrübə nəzərə alınaraq qanunvericilikdə mühüm dəyişikliklər edilmiş, Nazirlər Kabinetinin 29 iyun 2020-ci il tarixli qərarları ilə "Məhkəmə ekspertinin etik davranış kodeksi", "Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinin aparılması və yeni metodların həmin Reyestrə daxil edilməsi Qaydaları" və "Məhkəmə ekspertizasının metodik fondunun yaradılması və istifadəsi Qaydaları" təsdiq olunmuşdur.

Dövlət başçısı tərəfindən vətəndaşların rifahının yüksəldilməsinə xidmət edən sosialyönümlü tədbirlərin tərkib hissəsi olaraq hakimlərin əməkhaqları əhəmiyyətli dərəcədə artırılmış, habelə məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı yeni layihələr hazırlanmışdır.

Fərmanla ayrılmış 200 yeni hakim ştatının yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hüquqşünaslar hesabına komplektləşdirilməsi məqsədilə hakimlərin seçilməsi qaydaları təkmilləşdirilmiş, bu prosesdə çeviklik artırılmışdır. İmtahanların müasir texnologiyalar tətbiq edilməklə, 200-250 nəfərlik qruplarla, fasiləsiz olaraq keçirilməsi, namizədlərin sualları kompüter vasitəsilə cavablandırması və nəticələrin dərhal elanı təsbit olunmuşdur.

Hakimlərin Seçki Komitəsi tərəfindən müsabiqələr xüsusi karantin rejimi qaydalarına riayət olunmaqla davam etdirilmiş, hakimliyə namizədlərin keyfiyyətli distant təlimi təşkil olunmuşdur. 44 nəfər namizəd bütün imtahanları, o cümlədən yarım illik tədrisi və məhkəmələrdə stajkeçməni uğurla başa vurmuş və dövlət başçısının 03.02.2021-ci il tarixli Sərəncamı ilə müxtəlif birinci instansiya məhkəmələrinə təyin edilmişlər.

Bununla yanaşı hakimlərin seçilməsi prosesi davam edir. Test və yazılı imtahandan uğurla keçmiş növbəti 64 nəfər hakimliyə namizədlə şifahi imtahanlara başlanılmışdır. 230 hüquqşünasla isə mart ayının 3-də test imtahanı keçirilmiş və 157 nəfər uğur qazanaraq növbəti mərhələyə buraxılmışdır.

Fərmanın icrası çərçivəsində ötən il Məhkəmə-Hüquq Şurasının qərarı ilə "Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi Qaydaları" təsdiq edilmiş, onun elektron proqram təminatı hazırlanmışdır. Qaydalara uyğun olaraq 100-dən çox hakimin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə ali,




apellyasiya məhkəmələrinin, habelə müvafiq məhkəmə sədrlərinin rəyləri, Ədliyyə Nazirliyinin məlumatları, digər aidiyyəti materiallar toplanılmış, zəruri təhlillər aparılmış və yekun rəylər hazırlanmışdır.

Korrupsiyaya şərait yaradan halların qarşısının alınması və obyektivliyin təmin olunması məqsədilə Məhkəmə-Hüquq Şurası tərəfindən məhkəmələrdə monitorinqlər aparılaraq, yol verilən bir çox nöqsanlar aradan qaldırılmışdır. Fəaliyyətdə şəffaflığın təmin edilməsi üçün məhkəmə qərarlarının dərci üzrə xüsusi proqram təminatı hazırlanmışdır.

Eyni zamanda ölkə üzrə bütün məhkəmələrin 60%-ni əhatə edən "Elektron məhkəmə" informasiya sisteminin tətbiqinin genişləndirilməsi və funksionallığının artırılması ilə bağlı Dünya Bankı ilə birgə əməkdaşlıqda əməli tədbirlər görülmüşdür. Dövlət başçısının 01.06.2020-ci il tarixli Fərmanı ilə sistemin Əsasnaməsi təsdiq olunaraq fəaliyyətinin hüquqi əsasları müəyyən edilmiş, e-məhkəmənin digər qurumların informasiya sistemləri ilə qarşılıqlı inteqrasiyası təmin olunmuşdur. Həmçinin elektron resursun istifadəçiləri və iştirakçılarında yarana biləcək suallarla bağlı "Qaynar xətt" təşkil edilmiş, məhkəmə sisteminə əlçatanlığın asanlaşdırılması məqsədilə informasiya sisteminin mobil versiyası istifadəyə verilmişdir.

Qlobal pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin tətbiqi şəraitində məhkəmələrdə işlərə baxılmasının məhdudlaşdırıldığı nəzərə alınaraq məhkəmə proseslərinin "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə distant aparılması üçün xüsusi proqram modulu hazırlanmış və bir çox işlərə video bağlantı ilə baxılması təmin edilmişdir. Operativ olaraq qanunvericiliyə dəyişikliklərin edilməsi cinayət işlərinə də bu formatda baxılmasını mümkün etmişdir.

İlk növbədə, buna dövlət başçısının tapşırığı ilə məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə görülən ardıcıl tədbirlər imkan vermişdir. Bu sahədə Dünya Bankı ilə birgə həyata keçirilən layihə çərçivəsində ötən dövrdə paytaxtda və bölgələrdə 20 məhkəmə üçün konseptual baxımdan yeni bina və komplekslər inşa olunmuş və onlar "Elektron məhkəmə" informasiya sistemi və digər İKT ilə təchiz olunaraq, yüksək texnoloji (hi-tech) məhkəmələrə çevrilmişlər.

Xüsusilə vurğulamalıyam ki, yeni məhkəmə bina və komplekslərinin bir çoxunun açılışları möhtərəm Prezidentimiz tərəfindən şəxsən həyata keçirilmişdir.

Qeyd olunmalıdır ki, bu sahədə nailiyyətlərimizə beynəlxalq maraq artaraq bir çox dövlətlər müsbət təcrübəmizdən bəhrələnirlər. Təsadüfi deyil ki, Dünya Bankı Azərbaycanda ədliyyə sahəsindəki layihəni ən uğurlularından biri kimi qiymətləndirərək "Vətəndaşlara daha yüksək keyfiyyətli xidmətlərin göstərilməsi üçün innovativ üsulların yaradılması və tətbiqi" nominasiyalarının qalibi elan etmişdir.

Bundan əlavə mübahisələrin məhkəmədən kənar həllində mühüm vasitə olan mediasiyanın tətbiqi üzrə önəmli addımlar atılmış, o cümlədən "Mediasiya haqqında Qanun" qəbul edilmiş, həmin Qanuna və 3 aprel tarixli Fərmana uyğun olaraq Mediasiya Şurası yaradılmış, Ədliyyə Akademi-

yasında beynəlxalq ekspertlər cəlb olunmaqla mediasiya üzrə təlimçilər hazırlanmış və mediatorluğa namizədlər hazırlıq kursları keçməklə sertifikat əldə etmişlər.

Ölkəmizdə arbitraj institutunun təşviqi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı bu sahədə bir sıra dövlətlərin, o cümlədən Almaniya, Avstriya, Danimarka, Norveç və Gürcüstanın təcrübələri, habelə UNCİTRAL Model Arbitraj Qanunu nəzərdən keçirilmiş və "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununa və Mülki Prosessual Məcəlləyə dəyişikliklərlə bağlı yeni layihələr hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Qeyd etməliyəm ki, dünyada hökm sürən COVİD-19 qlobal pandemiyası ilə əlaqədar ölkəmizdə sərt karantin rejiminin tətbiq olunduğu ötən ildə Fərmanın icrası daim diqqətdə saxlanılaraq ardıcıl tədbirlər görülmüşdür.

Şübhəsiz ki, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, işin yeni çağırışlara uyğun təkmilləşdirilməsi üzrə hələ qarşımızda mühüm vəzifələr dayanır. Məhkəmələrə ictimai etimadın artırılması, əlçatanlığın yaxşılaşdırılması, "Elektron məhkəmə" informasiya sisteminin ölkənin bütün ərazisində tətbiqi, hakim korpusunun peşəkar hüquqşünaslarla möhkəmləndirilməsi, korrupsiya və digər neqativ hallara qarşı mübarizənin gücləndirilməsi əsas prioritetlərimizdəndir.



**- Azərbaycanda cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılmasına dair qanunvericilikdə bir sıra yeniliklər təsbit olunub. Bu tədbirlərin tətbiq olunması təcrübəsi nə səviyyədədir və onların davam etdirilməsi gözlənilirmi?**

- Humanizm ideyalarına daim sadiq olan ölkə Prezidenti tərəfindən cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı görülən tədbirlərin son illər davamlı xarakter alması xüsusi qeyd olunmalıdır. Belə ki, ölkə Prezidentinin təşəbbüsü ilə 2016-ci ildə cinayət qanunvericiliyinə mühüm dəyişikliklər edilərək iqtisadi sahədə bəzi əməllərin dekriminallaşdırılması ilə yüzlərlə məhkum müxtəlif cəzalardan azad olunmuşdur.

Dövlət başçısının 2017-ci il 10 fevral tarixli Sərəncamı isə bu sahədə müstəsna əhəmiyyət kəsb etmiş, cəza siyasəti xeyli humanistləşdirilmiş, azadlıqdan məhrum etməyə alternativ cəzaların tətbiqi genişləndirilmişdir. Bu mühüm sənədin icrası çərçivəsində ölkə Prezidentinin qanunvericilik təşəbbüsü ilə Parlament tərəfindən qəbul olunmuş 2017-ci il 20 oktyabr tarixli Qanunla Cinayət Məcəlləsinə 300-ə yaxın dəyişiklik edilmişdir ki, bura humanistləşdirmə, liberallaşdırma, azadlıqdan məhrumetmə cəzalarının azaldılması daxildir. Həmçinin, bəzi cinayət əməlləri dekriminallaşdırılmış, müvafiq maddələrin sanksiyasına alternativ cəzalar daxil edilmiş, azadlığın məhdudlaşdırılması yeni cəza növü təsbit olunmuşdur.

Eyni zamanda azadlıqdan məhrumetməyə alternativ cəzaların səmərəli icrası məqsədilə Ədliyyə Nazirliyində Probasiya Xidməti yaradılmış və qısa müddətdə elektron nəzarət vasitələri (elektron qolbaqlar) tətbiq olunmaqla həmin cəzaların icrasına effektiv nəzarətin həyata keçirilməsi öz səmərəsini vermişdir. Hazırda

elektron nəzarət vasitələrinin tətbiqi genişləndirilərək 2.700-ə yaxın məhkum elektron qolbaq daşıyır.

Dövlət başçısının humanistliyinin növbəti təzahürü olaraq 2019-cu il 3 aprel tarixli Fərmanı ilə cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılmasına dair tədbirlərin davam etdirilməsi tapşırılmışdır.

Bununla əlaqədar cinayət qanunvericiliyi ətraflı təhlil olunmuş, Prezident Administrasiyası, Ali Məhkəmə və Baş Prokurorluqla birgə yeni qanun layihələri hazırlanaraq ölkə başçısının qanunvericilik təşəbbüsü ilə Parlament tərəfindən qəbul olunmuşdur.

Belə ki, 2020-ci il mayın 1-də qəbul olunmuş Qanunla cinayət qanunvericiliyinə edilmiş dəyişikliklərlə bəzi əməllər dekriminallaşdırılmış, zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunmuş, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqi genişləndirilmiş, bəzi cəzalar yüngülləşdirilmişdir.

Beləliklə, ötən dövrdə cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı yeni qanunvericiliyə əsasən 2.100-ə yaxın məhkum cəzadan tamamilə azad edilmiş, 3.300-dən artıq məhkumun cəza müddəti azaldılmışdır.

Bununla yanaşı, dövlətimizin humanizm siyasətinin təzahürü olaraq məhkumları cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə və daha yüngül rejimli müəssisəyə keçirmə institutunun tətbiqi davamlı xarakter almış, bu məqsədlə vətəndaş cəmiyyəti nümayəndələrinin təmsil olunduğu Penitensiar xidmətdə fəaliyyət göstərən xüsusi Komissiya tərəfindən mütəmadi olaraq, o cümlədən xüsusi karantin rejimi şəraitində iclaslar videokonfrans formatında keçirilərək məhkumların işləri öyrənilmiş, özləri ilə söhbətlər aparılmış və islah yoluna düşməsi məsələsinə qiymət verilərək müvafiq rəylər məhkəməyə təqdim olunmuşdur.

Təkcə ötən il məhkəmələr tərəfindən 2.300-ə yaxın məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmuş və ya yüngül rejimli müəssisəyə keçirilmişdir. Bununla yanaşı, 740 nəfər ev dustaqlığı və digər alternativ qətimkan tədbirlərinin tətbiqi nəticəsində həbsdən azad edilmişlər.

Qeyd olunmalıdır ki, ölkəmizdə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş humanizm ənənələrinə daim sadiqlik nümayiş etdirilir, əfvetmə və amnistiya institutları işlək mexanizmlər əsasında davamlı olaraq geniş tətbiq olunur. Təkcə onu demək kifayətdir ki, ötən il pandemiya şəraitində yaşı 65-dən yuxarı olan məhkumların əksəriyyəti respublika Prezidenti tərəfindən əfv olunmuşdur. Dövlət başçısının Novruz bayramı ərəfəsində, martın 18-də imzaladığı 625 nəfəri əhatə edən əfv Sərəncamı müstəqillik dövrümüzün ən böyük əfvlərindən olmaqla minlərlə ailəyə sevinc bəxş etmişdir. Sərəncamla həmin şəxslərdən 475-i azadlığa buraxılmış, 98 nəfərin cəzası yarıyadək azaldılmış, 3 nəfərin ömürlük azadlıqdan məhrumetmə cəzası 25 il müddətlə əvəzlənmiş, 49 nəfər isə digər cəzalardan azad edilmişlər. Onların sırasında xarici ölkələrin vətəndaşları da olmuşdur.

Eyni zamanda humanizm ideyalarını həyata keçirmək, mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış etmək respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun da başlıca məramlarından biridir. Təsadüfi deyil ki, Mehriban xanımın təşəbbüsü ilə Milli Məclis tərəfindən qəbul edilmiş və on minlərlə insanı əhatə edən amnistiya aktları cinayət törətmiş şəxslərin islah olunmasına və cəmiyyətə yenidən inteqrasiyasına xidmət etmişdir.

Cəmiyyətimizdə rəğbətlə qarşılanan humanist tədbirlər, həmçinin cəza çəkən digər məhkumların islahına öz müsbət həvəsləndirici təsirini göstərərək, onları qanunazidd hərəkətlərdən çəkinməyə sövq edir, haqqa, ədalətə inamını artırır.

**- Sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması məqsədilə ölkəmizdə yeni ixtisaslaşmış məhkəmələr yaradılıb. Yeni yaradılan məhkəmələrin ilk təcrübələri barədə nə deyə bilərsiniz?**

- Dövlət başçısının 2019-cu il 3 aprel tarixli Fərmanında mühüm yeniliklərdən biri sahibkarların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə baxılması üçün ayrıca məhkəmənin təsis edilməsidir.

Bildirməliyəm ki, məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması dövlət başçısının daim diqqət mərkəzində olmuş və bu problemi həll etmək, məhkəmələri insanlara, hüquqi şəxslərə yaxınlaşdırmaq üçün son dövrlər xeyli iş görülmüş, məhkəmə sisteminin quruluşunda önəmli dəyişikliklər edilmişdir.

Hələ 2007-ci ildə respublikamızın regionlarında apelyasiya və iqtisad məhkəmələri, 2011-ci ildə isə digər regional məhkəmələr təsis edilmiş, habelə insan hüquqlarının təminatında mühüm rol oynayan inzibati ədliyyə institutu yaradılmış, bütün bölgələrdə inzibati-iqtisadi məhkəmələr formalaşdırılmışdır.

Məhkəmələrdə ixtisaslaşmanın aparılması bu gün bütün dünyada ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ən faydalı üsullardan biri hesab olunur. Ölkəmiz də bu istiqamətdə zəruri addımlar ataraq iqtisadiyyatımızın inkişafının bugünkü səviyyəsində sahibkarlıqla bağlı mübahisələrə baxılması işinin təkmilləşdirilməsi məqsədilə cənab Prezidentin tapşırığı ilə bu fəaliyyətlə əlaqədar yeni ixtisaslaşmış məhkəmələr yaradılmışdır.

Bununla əlaqədar beynəlxalq təcrübə öyrənilmiş, müxtəlif dövlətlərdə mövcud olan belə məhkəmə modelləri nəzərdən keçirilərək ölkəmiz üçün ən məqbul təcrübə seçilmiş və Azərbaycan Prezidentinin 2019-cu il 19 iyul tarixli Sərəncamı ilə mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəkidə yeni Kommersiya və ayrıca İnzibati məhkəmələr təsis edilmişdir.

2020-ci il yanvarın 1-dən fəaliyyətə başlayan həmin məhkəmələrin yurisdiksiyasının müəyyən edilməsi, müvafiq bina, avadanlıq, digər təşkilati-texniki vasitələrlə təmin edilməsi, məhkəmə aparatlarının formalaşdırılması üzrə tədbirlər görülmüş və məhkəmələr müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəyə malik hakimlərlə komplektləşdirilmişdir. Həmçinin, kommersiya işlərinə çevik baxılması üçün iddiaların elektron qəbulu və elektron sənəd dövriyyəsi təsbit olunmuş, əlçatanlığın effektiv müəyyən edilməsi nəticəsində kommersiya işlərinin sayı 50%-dək artmışdır.

Ötən il kommersiya məhkəmələri tərəfindən pandemiya məhdudiyyətləri nəzərə alınmaqla 7.200-ə yaxın işə baxılmış, iddiaların 94 faizi təmin olunmuşdur. Kommersiya mübahisələri üzrə yekun qərarların 80 faizi ilə tərəflər razılaşmış, başqa sözlə, həmin işlərdən apellyasiya şikayəti verilməmişdir. Xüsusilə vurğulamalıyam ki, kommersiya məhkəmələrinin yekun qərarlarının 96%-nin dəyişdirilməyərək sabit qalması sahibkarlıqla bağlı mübahisələrə ixtisaslaşdırılmış qaydada daha peşəkar və effektiv baxılmasının göstəricisidir.

**- Fikrət müəllim, işğaldan azad olunan ərazilərimizdə məhkəmə-hüquq sisteminin qurulması xüsusi yanaşma tələb edir. Məsələn, həmin ərazilərin rayon məhkəmələri mövcuddur, lakin regional məhkəmələrin yaradılmasına, hər şeydən əvvəl onların inzibati binalarının inşasına ehtiyac var. Ümumiyyətlə, bu məsələlər necə həll olunacaq və bu istiqamətdə hansı layihələr, planlar müzakirə edilir?**

- Böyük Qələbəmizdən sonra dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərə müntəzəm səfərləri və görülən tədbirlər doğma torpaqlarımızın dirçəldilməsinin təminatıdır.

Həmin ərazilərin yenidən bərpası, geniş quruculuq işlərinin aparılması təsadüfi deyil. Çünki Ermənistan 30 il işğal altında saxladıqları torpaqlarımızı büsbütün viran etmiş, tarixi, mədəni, dini abidələrimizi, mülki infrastruktur, dövlət və strateji obyektləri məhv etmiş, təbii sərvətlərimizi talan etmiş, ekoloji fəlakət törətmişdir.

Qeyd etmək istərdim ki, Ədliyyə Nazirliyi tərəfindən

düşmənin işğalçılıq faktları və müharibə cinayətləri ilə bağlı xarici ölkələrin ədliyyə nazirliklərinə və nüfuzlu beynəlxalq təşkilatlara 400-ə yaxın müraciətlər ünvanlanmışdır. Dünya ictimaiyyətinin düzgün və dolğun məlumatlandırılması məqsədi daşıyan müraciətlər reaksiyasız qalmamış, bəzi dövlətlər münasibət bildirərək bölgəyə humanitar yardım məqsədilə dəstək göstərilməsini bildirmiş, beynəlxalq hüquq çərçivəsində öhdəliklərə hörmət edilməsinə, bütün qanun pozuntularının araşdırılacağına ümidvar olduqlarını ifadə etmişlər.

Yeri gəlmişkən, Ermənistanın hərbi cinayətləri bu ilin mart ayında Yaponiyada BMT-yə üzv dövlətlərin və nüfuzlu beynəlxalq təşkilatların yüksək rəsmilərinin iştirakı ilə keçirilmiş BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 14-cü Konqresində də ifşa edilmişdir.

Belə ki, Konqresdə Azərbaycan, həmçinin ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatına üzv olan 120 dövlət adından Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi tərəfimdən çıxış edilərək ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın 30 illik erməni işğalından azad olunduğu, təcavüzkar düşmənin törətdiyi müharibə cinayətləri, xüsusilə Ermənistan tərəfindən beynəlxalq normalara zidd olaraq xarici ölkələrdən olan terrorçu muzdluların cəlb edilməsi, erməni diasporu tərəfindən aldatma və digər qanunsuz yollarla silah və sursatların alınması və humanitar yardım adı altında münaqişə zonasına mülki aviasiya vasitəsilə qanunsuz göndərilməsi tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır.



Həmçinin işğal dövründə torpaqlarımızın yerlə-yeksan edildiyi, bütün infrastrukturun dağıdıldığı, o cümlədən tarixi, mədəni və dini abidələrin məhv olunması ya da talanması faktları vurğulanmış, həmin ərazilərin qeyri-qanuni iqtisadi fəaliyyət, narkotrafik və digər cinayət əməlləri üçün istifadə olunması qeyd edilmişdir.

Konqres iştirakçılarının və bütün dünya hüquq ictimaiyyətinin diqqəti Ermənistanın bu cinayət əməllərinə cəlb olunmuş, sülh üçün təhlükə olan bu əməlləri törədənlərin məsuliyyətə cəlb edilməsi ilə bağlı bütün dövlətlərə çağırış olunmuşdur.

Qoşulmama Hərəkatı adından çıxış edilərkən Kioto Konqresinin gündəliyindən irəli gələn məsələlərlə bağlı Hərəkatın mövqeyini əks etdirən bəyanat barədə məlumat verilmişdir. Qoşulmama Hərəkatının bütün üzv dövlətlərinin razılığı ilə qəbul edilərək yayımlanmış bəyanatda Azərbaycan tərəfinin təkliflərinə uyğun olaraq xeyriyyə təşkilatlarından terrorçuluğun maliyyələşdirilməsi məqsədilə istifadə edilməsinin qarşısının alınması, münaqişə dövründə vandalizm aktları, mədəni irsin dağıdılması və ya talanması ilə bağlı böyük narahatlıq ifadə olunaraq bu halların aradan qaldırılmasına, qanunsuz çıxarılmış mədəni mülkiyyətin qanuni sahibinə geri qaytarılması ilə bağlı çağırışlar təsbit olunmuşdur.

Konqres iştirakçılarının diqqətini cəlb edən bu əsaslı ittihamlardan yayınmaq istəyən Ermənistan tərəfi ölkəmiz və Türkiyə ilə bağlı uydurma fikir-

lər söyləmiş, lakin Azərbaycan nümayəndə heyətinin tutarlı dəlilləri ilə onların yalanları tam ifşa olunmuşdur.

Bildirməliyəm ki, iclasda qlobal cinayətkarlıqla mübarizə üzrə səylərin gücləndirilməsinə dair qəbul olunmuş 5 illik proqram xarakterli Kioto Bəyannaməsində Azərbaycanın təkliflərinə əsasən milli maraqlarımıza cavab verən müddəalar tam əksini tapmışdır.

Hazırda ermənilər tərəfindən işğal dövründə dağıdılmış torpaqlarımızın bərpa olunması, bir milyondan çox keçmiş məcburi köçkünlərimizin öz dədə-baba yurdlarına qayıtması üçün həmin ərazilərin yenidən həyata qaytarılması ilə bağlı genişmiqyaslı quruculuq işləri aparılır.

Həmin ərazilərdə ədliyyə və məhkəmə fəaliyyətinin təşkili məsələləri qarşımızda duran ən ümdə vəzifələrdir. Bununla əlaqədar dövlət başçısının işğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkilinə dair tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi üzrə 01.11.2020-ci il tarixli əmrlə kompleks tədbirlər müəyyən olunmuş, o cümlədən ədliyyə nazirinin rəhbərliyi ilə Qərargah yaradılmış, zəruri təşkilati işlər görülmüşdür.

Qeyd etməliyəm ki, nazirlik tərəfindən strukturuna daxil olan yerli və regional qurumlar vasitəsilə insanlara hüquqi xidmətlərin göstərilməsi sahəsində çoxşaxəli fəaliyyət göstərir: vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparır, notariat fəaliyyətini, məhkəmə ekspertizalarının keçirilməsini, məhkəmə qərarlarının icrasını və probasiya nəzarətini təmin edir, bələdiyyələrə metodoloji yardım göstərir, inzibati nəzarət həyata keçirir və s.

Həmin ərazilərdə bu sahədə fəaliyyətin təşkili və ədliyyə orqanlarının işinin əlaqələndirilməsi məqsədilə Qarabağ regional ədliyyə idarəsi yaradılmışdır.

Məhkəmələrin fəaliyyətinə gəlincə isə, həmin rayonların məhkəmələri əvvəlki illərdə olduğu kimi, işğal dövründə də fəaliyyətlərini əhalisinin daha sıx məskunlaşdığı digər bölgələrdə davam etdirmişdir.

İndi torpaqlarımız işğaldan azad olunmuşdur və sözsüz ki, həmin məhkəmələr bütün infrastruktur bərpa olunduqdan və soydaşlarımız öz torpaqlarına qayıtdıqdan sonra yenidən öz ərazilərində fəaliyyət göstərəcəklər. Eyni zamanda, gələcəkdə həmin bölgədə aidiyyəti yeni regional apellyasiya və ixtisaslaşmış - kommersiya, inzibati, ağır cinayətlər, hərbi məhkəmələrin yaradılması nəzərdə tutulur.

Bildirməliyəm ki, bu sahədə fəaliyyətimiz ölkə Prezidentinin 24.11.2020-ci il tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahı ilə koordinasiyada qurulmuşdur və hazırda işğal nəticəsində ədliyyə və məhkəmə orqanlarına dəymiş ziyanın dəqiqləşdirilməsi və onların fəaliyyətinin bərpası ilə bağlı zəruri tədbirlər görülür.

**- Ədliyyə sistemində bir çox elektron xidmətlər göstərilir. Perspektivdə hansı yeni sahələrin elektron xidmətlərə keçməsi gözlənilir?**

- Ədliyyənin müxtəlif sahələrində elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqinə daim xüsusi diqqət yetirilir. Hazırda nazirlik tərəfindən əhaliyə 31 elektron xidmət göstərilir ki, 2020-ci ildə bu xidmətlərdən istifadə sayı 1,4 milyonu ötmüşdür. Pandemiya İKT-lərin geniş tətbiqini və fəaliyyətin onlayn rejimə keçməsini stimullaşdırmış və bu baxımdan ədliyyə və məhkəmə fəaliyyəti ilə bağlı elektron xidmətlərin tətbiqi karantin dövründə vətəndaşların bu orqanlara əlçatanlığını xeyli asanlaşdırmışdır.

Tətbiq olunan innovasiyalarla bağlı qısaca məlumat vermək istərdim. Səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar "elektron notariat çantası" hazırlanaraq notariusların istifadəsinə verilmişdir ki, elektron notariat informasiya sisteminə və aidiyyəti məlumat banklarına birbaşa çıxışı olan həmin çanta vasitəsilə istənilən yerdə hər hansı notariat hərəkətini aparmaq və sənədləri çap edib, təqdim etmək mümkündür.

Maraqlı yeniliklərdən biri də "Elektron ədliyyə köşkü"dür. Sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılan bu "köşk" vətəndaşlara video əlaqə vasitəsilə 24 saat ərzində notariat xid-

mətlərinin məsafədən göstərilməsinə və müvafiq sənədlərin əldə edilməsinə imkan verir.

Həmçinin Azərbaycanın məhsulu olan "Mobil notariat" tətbiqi son zamanlar vətəndaşların daha çox bəhrələndiyi innovasiyalardan biridir. Müvafiq proqramı telefona yükləməklə vətəndaşın elektron notariat kabineti yaradılır və notariat fəaliyyəti ilə bağlı bütün məlumatların yüklənməsi təmin edilir. Pandemiya dövründə bu tətbiqin funksionallığı genişləndirilmişdir. Artıq tətbiq üzərindən istifadəçilər notariat ofisinə getmədən notariusla video əlaqə yaradaraq nəqliyyat vasitələrinin idarə olunması və ona sərəncam verilməsi, habelə hüquqi yardımla bağlı vəkilə verilən və bəzi digər etibarnamələrin elektron rəsmiləşdirilməsi imkanına malikdirlər.

Hazırda istifadəçilərinin sayı 110.000-dən çox olan "Mobil notariat" üzərindən bu yaxınlarda vətəndaşlara yeni əlavə - banklarda təmsilçilik məqsədilə verilən etibarnamələrin, eləcə də yetkinlik yaşına çatmamış şəxslərin ölkə ərazisini tərk etməsi üçün valideynləri tərəfindən yazılan razılıq və etibarnamələrə xitam verilməsinə dair ərizələrin elektron qaydada videoyazı vasitəsilə rəsmiləşdirilməsi imkanları yaradılmışdır.

Bank əməliyyatları üçün zəruri olan notariat hərəkətlərinin video əlaqə vasitəsilə rəsmiləşdirilməsi məqsədilə banklarda müvafiq avadanlıqla təchiz edilmiş notariat kabinəsi




quraşdırılmışdır. Eyni xidmətlər, həmçinin böyük sosial əhəmiyyətə malik olan "DOST" mərkəzlərində də göstərilir.

Bununla yanaşı, məhkəmə xidmətlərinə əlçatanlığın artırılması məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin mobil versiyası mövcuddur. "Mobil məhkəmə" tətbiqi üzərindən istifadəçilər "Şəxsi kabineti" vasitəsilə sistemin açdığı bütün imkanlardan yerləşdiyi yerdən asılı olmayaraq öz mobil cihazı vasitəsilə istifadə edə bilərlər. Hazırda "Mobil məhkəmə" vasitəsilə birinci instansiya məhkəmələri tərəfindən qəbul olunan qərarlardan apellyasiya şikayətinin verilməsi imkanın yaradılması üzrə tədbirlər görülür.

Eyni zamanda, borclu şəxslərə aliment, kredit, cərimə və digər icra ödənişlərinin "ASAN ödəniş" və "Elektron hökumət" portalları, eləcə də müxtəlif mobil tətbiqlər vasitəsilə onlayn qaydada və ya terminallar vasitəsilə həyata keçirilməsi, valideynlik hüququndan istifadənin - uşaqla ünsiyyətin video-əlaqə vasitəsilə təmin edilməsi imkanının yaradılması məhkəmə qərarlarının icrasının səmərəsini artırmışdır.

Hazırda icra xidməti sahəsində fiziki və hüquqi şəxslərə tərəf olduqları icra işləri barədə məlumatın verilməsi, habelə doğumun və ölümün dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi və digər fəaliyyət istiqamətləri üzrə e-xidmətlərin genişləndirilməsi ilə bağlı işlər aparılır.

**- Məhkəmə-hüquq islahatlarının xüsusiyyəti belədir ki, az qala hər bir dəyişikliyin qanunvericilikdə təsbit olunması tələb olunur. Bu istiqamətdə Ədliyyə Nazirliyi ilə ölkənin qanunverici orqanı olan Milli Məclis arasında məhkəmə-hüquq sahəsində aparılan islahatlara dair əməkdaşlığın formatı barədə fikrinizi bilmək istərdik.**

- Bu gün Azərbaycan parlamenti səmərəli fəaliyyəti ilə

ölkəmizin hərtərəfli inkişafına dəyərli töhfələr verir, qəbul olunan qanunlar həyatımızın bütün sahələrini əhatə edir və qanunvericilik bazamız ən yüksək meyarlara cavab verir. Azərbaycan parlamenti ölkəmizdə çoxpartiyalı sistemin təkmilləşdirilməsində də önəmli rol oynayır. Ötən il keçirilmiş azad və şəffaf seçkilər nəticəsində çoxpartiyalı yeni parlament formalaşmış və müxtəlif partiyaların nümayəndələri Milli Məclisin və komitələrinin rəhbərliyində təmsil olunurlar.

Ədliyyə Nazirliyinin mühüm fəaliyyət istiqamətlərindən biri ölkədə iqtisadi inkişafa, əhalinin maddi və sosial vəziyyətinin yaxşılaşdırılmasına yönələn və digər qanunvericiliyin təkmilləşdirilməsində yaxından iştirakla bağlıdır. Bu prosesdə fəal iştirak edən nazirlik tərəfindən təkcə 2020-ci ildə 1.800-dək qanunvericilik aktı layihəsi hazırlanmış, 3.300-ə yaxın akt hüquqi ekspertizadan keçirilmişdir və qeyd etməliyəm ki, bu sahədə Milli Məclislə səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilərək, hazırlanan layihələrlə bağlı mütəmadi olaraq Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Regional məsələlər və digər aidiyyəti komitələrlə birgə müzakirələr, məsləhətləşmələr aparılır.

Dövlət başçısının 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində hazırlanan mühüm qanunvericilik paketlərinin geniş və hərtərəfli müzakirə olunaraq qəbul olunmasında Milli Məclisin fəaliyyətini xüsusilə vurğulamaq istərdim.

Eyni zamanda Milli Məclisin məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasında təmsil olunması, onun nümayəndəsinin problemlərlə bilavasitə tanışlığı və onların həllində iştirakı məhkəmə sisteminin fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsində mühüm əhəmiyyət kəsb edir. Qeyd edilməlidir ki, Şuranın 15 illik fəaliyyəti dövründə "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlara 60-a yaxın dəyişikliklər edilmişdir. Onların bir çoxu məhz Şurada təmsil olunan Milli Məclisin nümayəndəsinin təşəbbüsü ilə qəbul olunmuşdur.

Təsadüfi deyil ki, bu sahədə islahatlarımız və nailiyyətlərimiz beynəlxalq maraq doğuraraq təqdir edilir, Avropanın nüfuzlu mükafatlara, o cümlədən "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq bilinir, hakimlərin seçim proseduru şəffaflığına və obyektivliyinə görə Avropa Şurası və Avropa İttifaqı tərəfindən örnək kimi dəyərləndirilərək digər dövlətlərə tövsiyə olunur. Qeyd etməliyəm ki, hakim korpusunun formalaşdırılması işinə də Milli Məclis öz töhfəsini verir. Belə ki, yuxarı instansiya məhkəmələrinin hakimləri məhz parlament tərəfindən təyin olunurlar.

Bununla yanaşı, ali qanunverici orqan olan Milli Məclis hökumətin, bələdiyyələrin və s. hesabatlarını dinləyir. Millət vəkillərinin dəyərli fikir və təklifləri fəaliyyətimizin təkmilləşdirilməsində mühüm rol oynayır, qaldırılan hər bir məsələ tərəfimizdən hərtərəfli araşdırma predmeti olur, zərurət olduqda müvafiq tədbirlər görülür və Milli Məclis operativ və müfəssəl məlumatlandırılır. Bununla yanaşı, ədliyyə fəaliyyəti ilə bağlı deputatlardan daxil olan ayrı-ayrı sorğulara da həssaslıqla yanaşılaraq aidiyyəti üzrə cavablandırılır.

Həmçinin nazirlik tərəfindən şəffaflığa, ictimai iştirakçılığa mühüm əhəmiyyət verilərək vətəndaş cəmiyyəti institutları ilə uzun illərdir sıx əməkdaşlıq edilir və onlar ədliyyənin müxtəlif fəaliyyət istiqamətləri üzrə görülən tədbirlərə mütəmadi cəlb olunurlar. Onların sırasında Milli Məclisin üzvləri də olur ki, bu çərçivədə də səmərəli qarşılıqlı fəaliyyət həyata keçiririk.

Eyni zamanda bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan olaraq illik məruzələri nazirlik özü Milli Məclisdə müzakirəyə təqdim edir.

Yeri gəlmişkən, Milli Məclisin bu il martın 9-da keçirilmiş iclasında bələdiyyələrin fəaliyyəti ilə bağlı 2020-ci il üzrə İllik Məruzə dinlənilmiş və deputatların bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsinə dair irad və təklifləri ilə bağlı zəruri tədbirlərin görülməsi müəyyən edilmişdir.

Milli Məclisin üzvlərinin

Ədliyyə Nazirliyi tərəfindən keçirilən tədbirlərdə, o cümlədən ədliyyə və məhkəmə fəaliyyəti ilə bağlı mötəbər beynəlxalq konfranslarda, ictimai müzakirələrdə daim yaxından iştirak etmələri xüsusi qeyd olunmalıdır.

Hesab edirəm ki, ədliyyə və məhkəmə fəaliyyəti ilə bağlı görülən tədbirlər barədə maarifləndirmə işi genişləndirilməlidir ki, bu da ictimaiyyətin, eyni zamanda parlament üzvlərinin məlumatlılığının artırılması baxımından olduqca önəm kəsb edir. Bu məqsədlə birgə təqdimatların keçirilməsi, innovasiyaların tətbiq olunduğu yeni infrastruktura malik məhkəmələrin fəaliyyəti ilə tanışlıq səfərlərinin təşkil edilməsi, millət vəkillərinin həmçinin Ədliyyə Akademiyasında keçirilən tədris işinə cəlb olunması, qanunyaradıcı prosesdə qarşılıqlı fəaliyyətin genişləndirilməsi məqsədəmüvafiq olardı.

Əminəm ki, Ədliyyə Nazirliyi ilə Milli Məclis arasında səmərəli və işgüzar əməkdaşlıq münasibətləri bundan sonra da yüksələn xətlə inkişaf edəcəkdir.

Fürsətdən istifadə edib, yeni formalaşmış VI çağırış Milli Məclisin Sədri Sahibə xanım Qafarova başda olmaqla bütün üzvlərinə ölkəmizin qanunvericilik bazasının möhkəmləndirilməsi və parlamentarizm ənənələrinin inkişafı naminə fəaliyyətlərində uğurlar arzulayıram.

# Məhkəmə sistemində islahatlar davam edir

**Mayın 4-də Məhkəmə-Hüquq Şurasının videokonfrans formatında iclası keçirilib. Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş tərəqqi yolunun möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdirildiyini, dövlətimizin iqtisadi, siyasi, hərbi cəhətdən möhkəmləndiyini və əldə olunmuş nailiyyətlərə görə dünyada ən islahatçı ölkələrdən biri kimi xarakterizə olunduğunu vurğulayıb. Ölkə Prezidentinin rəhbərliyi ilə işğaldan azad olunmuş doğma torpaqlarımızın yenidən dirçəlməsi üzrə həyata keçirilən tədbirlər böyük fəxarət hissi ilə qeyd olunub.**



Bildirilib ki, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" dövlət başçısının 03.04.2019-cu il tarixli Fərmanı ədalət mühakiməsinin təkmilləşdirilməsi işinin müasir çağırışlara uyğun yeni mərhələdə təşkilini, o cümlədən kadr islahatlarının aparılmasını, hüquqların məhkəmə müdafiəsinin güclənməsini şərtləndirib.

Fərmana uyğun olaraq mühüm qanunlar qəbul edilib, o cümlədən cəza siyasəti huma-

nistləşdirilib, "Elektron Məhkəmə" informasiya sisteminin bütün ölkəni əhatə etməsi üçün tədbirlər görülüb, karantin şəraitində İKT-lər tətbiq olunmaqla, məhkəmə proseslərində video formatdan geniş istifadə olunub. Yeni regional inzibati və kommersiya məhkəmələri təsis edilib, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün işlək mexanizmlər yaradılıb, məhkəmələrin və hakimlərin təminatı güclənib. Məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə tədbirlər görülüb, yeni bina və komplekslər inşa olunaraq yüksək texnoloji - "hi-tech" məhkəmələr yaradılıb.

Həmçinin, hakimlərin iş yükünün azaldılması, işlərə daha keyfiyyətlə və çevik baxılması məqsədilə əlavə ayrılmış 200 yeni hakim ştatının yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hüquqşünaslar hesabına komplektləşdirilməsi məqsədilə, müsabiqələr xüsusi karantin rejimi qaydalarına riayət olunmaqla davamlı xarakter alıb, namizədlərin distant təlimi və məhkəmələrdə təcrübələri təşkil olunub.

Müsabiqə prosesini artıq uğurla başa vurmuş 44 nəfər namizəd dövlət başçısının Sərəncamı ilə cari ilin əvvəlində müxtəlif birinci instansiya məhkəmələrinə təyin ediliblər. Hakimlərin seçimi prosesi davam olunaraq 221 nəfər hakimliyə namizəd isə hazırda müsabiqənin müxtəlif mərhələsindədirlər.

İclasda həmçinin bildirilib ki, Fərmanın icrası çərçivəsində hakimlərin fəaliyyətinin hərtərəfli və prinsipial qiymətləndirilməsi məqsədilə yeni Qaydalar təsdiq edilib, onun elektron proqram təminatı hazırlanıb.

Həmin Qaydalara uyğun olaraq 120-dək hakimin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə ali, apellyasiya və digər müvafiq məhkəmələrin rəyləri, Ədliyyə Nazirliyinin məlumatları, sair aidiyyəti materiallar toplanılıb, zəruri təhlillər aparılıb və yekun rəylər hazırlanaraq Şuranın müzakirəsinə çıxarılıb.

İclasda həmin hakimlər barədə qiymətləndirmə materialları hərtərəfli müzakirə olunaraq, onlardan 14 nəfərin fəaliyyətində peşəkar çatışmazlıqlar müəyyən olunub və işdə dönüş yaratmaları üçün 6 ay vaxt verilib, 3 nəfərin isə səlahiyyətlərinə xitam verilməsi qərara alınıb.

Bildirilib ki, Fərmanının icrası üzrə görülən tədbirlər çərçivəsində hakim kadrlarından səmərəli istifadə edilməsi ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır. Ötən il dövlət başçısının Sərəncamları ilə 30-dan çox rəhbər hakim vəzifələrinə təyinatların aparılması, bir sıra hakimlərin intizam qaydasında aşağı işə keçirilməsi, yüksək hazırlığa və zəruri mənəvi keyfiyyətlərə malik 20-dək yeni nəsl gənc hakimin ali və apellyasiya məhkəmələrinə irəli çəkilməsi diqqətə çatdırılıb.

Bu tədbirlərin davamı olaraq Şuranın iclasında ali və apellyasiya məhkəmələrinə zəruri hazırlığa və mənəvi keyfiyyətlərə malik 24 hakimin təyin olunması, apellyasiya məhkəmələrinin rəhbərliyində dəyişikliklərın aparılması, həmçinin, fəaliyyətində çatışmazlıqlara yol verən hakimlərin həmin məhkəmələrdən kənarlaşdırılmasına dair təkliflər verilib.

Dövlət başçısının məhkəmə fəaliyyətində şəffaflığın təmin olunması, korrupsiya və digər neqativ hallara qarşı mübarizənin gücləndirilməsi ilə bağlı qəti tapşırıq və tövsiyələri diqqətə çatdırılaraq, prinsipial kadr dəyişikliklərinin ədalət mühakiməsinin səmərəliliyinə töhfə verəcəyinə əminlik vurğulanıb.

İclasda yeni məhkəmələrin yaradılması və hərbi məhkəmələrin ərazi yurisdiksiyasının təkmilləşdirilməsi ilə bağlı məhkəmələrin ərazi yurisdiksiyasına dəyişikliklərin edilməsi barədə qərarlar qəbul edilib.

Həmçinin Şurada hakimlər barədə intizam icraatı üzrə işlərə baxılaraq, korrupsiyaya şərait yaradan hallara, süründürməçiliyə və digər pozuntulara yol verdiklərinə görə Şirvan Apellyasiya Məhkəməsinin hakimləri Nüsrət Mirzəyev və Tofiq Heydərova töhmət verilib, Bakı Şəhəri Nizami Rayon Məhkəməsinin hakimi Mətanət Hacıyevaya irad tutulub.

# Ədliyyə naziri Peterburq Beynəlxalq Hüquq Forumunda çıxış edib







**Mayın 18-dən 22-dək Rusiya Federasiyası Prezidentinin himayəsi altında Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Peterburq Beynəlxalq Hüquq Forumu keçirilib.**

Videokonfrans formatında təşkil olunmuş forumda Rusiyanın və xarici ölkələrin dövlət xadimləri, ədliyyə, məhkəmə, prokurorluq və digər qurumların rəhbərləri, müxtəlif hüquq sahələrində tanınmış ekspertlər, dünya şöhrətli alimlər, habelə nüfuzlu hüquq şirkətlərinin və beynəlxalq təşkilatların rəsmi şəxsləri iştirak ediblər.

Tədbir çərçivəsində "Yeni erada ədliyyənin rəqəmsal siması" adlı ədliyyə nazirlərinin sessiyası keçirilib. İnternetdə canlı yayımlanan sessiyada Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov çıxış edib, ölkəmizin bu sahədə müsbət təcrübəsi ilə bölüşüb.

Azərbaycanda İKT-nin inkişafının 2030-cu ilədək sosial-iqtisadi tərəqqinin əsas prioritetlərindən olduğunu bildirən nazir rəqəmsal texnologiyaların tətbiqinin vətəndaş-məmur münasibətlərinin tamamilə yeni səviyyəyə yüksəltdiyini, korrupsiyanın və süründürməçiliyin qarşısını aldığını, bununla da insanların rahatlığına xidmət etdiyini vurğulayıb. Ədliyyə və məhkəmə sahəsində rəqəmsallaşmanın daha geniş tətbiq olunduğunu, qlobal pandemiyanın bu prosesi daha da aktuallaşdırdığını və sürətləndirdiyini qeyd edib.

Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlar çərçivəsində Dünya Bankının iştirakı ilə məhkəmə infrastrukturunun müasirləşdirilərək yüksək texnoloji (hi-tech) məhkəmələrin yaradıldığı, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi vurğulanıb.

Diqqətə çatdırılıb ki, məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edən "Elektron məhkəmə" ədalət mühakiməsinə əlçatanlığı əhəmiyyətli dərəcədə genişləndirir, şəffaflığı və operativliyi təmin edir. Kommersiya mübahisələri üzrə icraat isə artıq bir neçə ildir ki, yalnız elektron qaydada aparılır.

Eyni zamanda tədbir iştirakçıları "Mobil məhkəmə" tətbiqi, süni intellektdən istifadə və s. barədə məlumatlandırılıb, qanunvericiliyə operativ olaraq dəyişikliklər edilərək pandemiya şəraitində məhkəmə işlərinə videokonfrans formatında da baxılmasının təmin olunduğu bildirilib.

Nazir həmçinin, vətəndaşlara göstərilən çoxşaxəli elektron ədliyyə, o cümlədən məsafədən video-əlaqə vasitəsilə göstərilən notariat xidmətlərindən, mobil notariatın tətbiqin-

dən danışaraq bu sahədə nailiyyətlərimizin beynəlxalq maraq doğurduğunu və bir çox xarici dövlətlərin müsbət təcrübəmizdən bəhrələndiyini vurğulayıb. Bu mənada Azərbaycanın "ixrac edilən" brendinə çevrilən "ASAN xidmət"in innovativ fəaliyyəti qeyd olunub.

Çıxışda ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş və Ermənistan tərəfindən tamamilə dağıdılmış torpaqlarımızda aparılan genişmiqyaslı bərpa işləri çərçivəsində rəqəmsal texnologiyalar tətbiq olunmaqla "ağıllı şəhər", "ağıllı kənd"lərin yaradılması vurğulanıb.

Peterburq Beynəlxalq Hüquq Forumu öz işini tematik konfranslar və dəyirmi masalarla davam etdirib.

# Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib

**Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların müraciətlərinə, xüsusilə şəhid ailələrinin və hərbçilərin qayğılarına həssaslıqla yanaşılması daim diqqətdə saxlanılır, onların müraciətlərinə pandemiya şəraiti ilə əlaqədar elektron qaydada baxılması təmin edilir, videoqəbulların keçirilməsi davam etdirilir.**

Mayın 25-də ədliyyə naziri Fikrət Məmmədov paytaxtda və müxtəlif bölgələrdə yaşayan vətəndaşları videoformatda qəbul edib.

Regional ədliyyə idarələri vasitəsilə videoqəbula qoşulan vətəndaşların, o cümlədən müharibə iştirakçılarının ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üzrə zəruri tədbirlərin görülməsi üçün aidiyyəti məsul işçilərə müvafiq tap-



şırıqlar verilib.

Videoqəbulda iştirak edən vətəndaşlar müraciətlərinə həssaslıqla və diqqətlə yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə edib, yaradılan şəraitdən məmnunluqlarını bildiriblər.

# Özbəkistan Azərbaycanın ədliyyə sahəsindəki innovasiyalara maraq göstərir

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sistemində müasir çağırışlara uyğun islahatlar aparılaraq vətəndaşlara şəffaf, operativ və əlçatan xidmətlərin göstərilməsi məqsədilə elektron innovasiyalardan geniş istifadə olunur.**

Rəqəmsal texnologiyaların tətbiqi, həmçinin vətəndaş-məmur münasibətlərinin tamamilə yeni səviyyəyə yüksəlməsinə, korrupsiyanın və süründürməçiliyin qarşısının alınmasına, bununla da insanların rahatlığına xidmət edir. Bu sahədə yeniliklər beynəlxalq maraq doğuraraq digər dövlətlər Azərbaycanın təcrübəsindən bəhrələnirlər.

Belə ki, ölkəmizdə səfərdə olmuş Özbəkistanın Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Akmal Burxanovun rəhbərlik etdiyi nümayəndə heyəti ədliyyə və məhkəmə sahəsində tətbiq olunan innovasiyalarla tanış olmaq





üçün Ədliyyə Nazirliyində olub.

Nümayəndə heyəti üçün xüsusi təqdimat keçirilərək vətəndaşlara göstərilən çoxşaxəli elektron ədliyyə xidmətləri, nazirlik tərəfindən aparılan müxtəlif reyestrlər və digər elektron informasiya resursları barədə məlumat verilib.

Qonaqlar "Elektron məhkəmə" və "Elektron notariat" informasiya sistemlərinə xüsusilə maraq göstəriblər. Həmçinin, pandemiya ilə əlaqədar xüsusi karantin rejimi şəraitində məsafədən video-əlaqə vasitəsilə göstərilən notariat xidmətləri, o cümlədən "Elektron ədliyyə köşkü", səyyar notariat çantası, "Mobil notariat" tətbiqi məmnunluq doğurub.

Eyni zamanda, "Mobil məhkəmə" proqram təminatı, süni intellektdən istifadə, məhkəmə işlərinə baxılmasında videokonfransın tətbiqi, habelə azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələri ilə bağlı təqdimatlar nümayiş etdirilib.

Ədliyyə nazirinin müavini Eldar Nuriyev ilə görüşən Özbəkistanın nümayəndə heyəti yeni yaradılmış Korrupsiyaya qarşı Mübarizə Agentliyinin fəaliyyəti barədə məlumat verərək, bu sahədə yaxşı təcrübələri öyrəndiklərini, bu məqsədlə Azərbaycanın nailiyyətlərinə böyük maraq göstərdiklərini, korrupsiyaya qarşı mübarizədə mühüm rol oynayan "ASAN xidmət" modelindən bəhrələndiklərini vurğulayıblar. Bildiriblər ki, Azərbaycanın ədliyyə sahəsindəki innovasiyaların tətbiqində müsbət təcrübəsindən yararlanmaq onlar üçün faydalı ola bilər.

Görüşdə Azərbaycan və Özbəkistan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi, bu əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin xüsusi rolu vurğulanıb.

Nazir müavini həmçinin, hüquqi sahədə səmərəli əməkdaşlığı qeyd edərək ötən ay rəqəmsal innovasiyalara həsr olunmuş Daşkənd Hüquq Baharı Forumu çərçivəsində iki ölkə arasında ədliyyə sahəsində qarşılıqlı fəaliyyətə dair yeni Əməkdaşlıq Proqramının imzalandığını söyləyib.

A.Burxanov korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığa toxunaraq ölkəmizin həmtəsisçisi olduğu Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının rəhbərliyində təmsilçiliyini yüksək qiymətləndirib, rəhbərlik etdiyi qurumun Assosiasiyanın işində yaxından iştirak etmək niyyətində olduğunu bildirərək, bununla bağlı Azərbaycanın dəstəyini məmnunluqla qarşılayıb.

Görüşdə əməkdaşlığın perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb, qonaqları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Penitensiar xidmətdə Vətən müharibəsində iştirak etmiş əməkdaşlarla görüş

**Torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılmış Vətən Müharibəsinin ilk günlərindən cəbhəyə yollanmış və hərbi əməliyyatlarda mərdlik və rəşadətlə iştirak etmiş əməkdaşlara Ədliyyə Nazirliyinin rəhbərliyi tərəfindən daim diqqət və qayğı göstərilir.**



Mayın 7-də Ədliyyə Nazirliyi Penitensiar xidmətinin Baş idarəsində Ramazan Bayramı ərəfəsində müharibə iştirakçıları ilə ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Ceyhun Həsənovun görüşü keçirilib.

Görüş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanılıb.

Çıxış edən nazir müavini Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik və yenilməz rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Böyük Qələbə münasibətilə iştirakçıları bir daha təbrik edib.

Ölkə rəhbərliyinin apardığı uğurlu siyasət, Ordumuzun qəhrəmanlığı sayəsində və şəhidlərimizin qanı bahasına torpaqlarımızın işğaldan azad olunaraq ərazi bütövlüyümüzün təmin edildiyi vurğulanıb. Bu şərəfli işdə fədakarlıq nümayiş etdirərək ilk gündən sonadək böyük sücaət göstərdiklərinə görə onlara təşəkkürünü bildirib.

Qeyd edilib ki, hazırda ölkə Prezidentinin rəhbərliyi altında azad olunan ərazilərin bərpa olunması ilə bağlı nəhəng quruculuq işləri həyata keçirilir. Bütün bu müddət ərzində dövlət başçısının və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın həmin bölgəyə müntəzəm səfərləri böyük dirçəlişin və qayıdışın təminatıdır.

Vətən müharibəsi iştirakçılarının sosial müdafiəsinin və rifahının yaxşılaşdırılması, şəhid ailələrinin və yaralı hərbiçilərimizin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması üçün mütəmadi tədbirlərin həyata keçirildiyi qeyd edilib.

Müharibə veteranlarımız dövlət mükafatlarına layiq görülüb, eyni zamanda ədliyyə naziri və Penitensiar xidmətin rəisi tərəfindən dəfələrlə mükafatlandırılıblar.

Müharibə iştirakçılarından ikisi Penitensiar xidmətdə kiçik rəis heyətinə qulluğa qəbul edilib, digər üç əməkdaşın kiçik və orta rəis heyətinə qulluğa qəbulu məsələsinə baxılır.

Çıxış edən müharibə iştirakçıları Vətən müharibəsində iştirak etməkdən böyük şərəf və qürur hissi duyduqlarını, göstərilən diqqət və qayğıya görə öz dərin təşəkkürlərini bildirib, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək vətənimizin müdafiəsi və tərəqqisi naminə dövlətimizə və xalqımıza layiqli xidmətlərini davam etdirəcəklərinə söz veriblər.

# Penitensiar xidmətin kursantları Hərbi Qənimətlər Parkında

**Ədliyyə Nazirliyi Penitensiar xidmətinin Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəçilik Akademiyasında əyani əsasda təhsil alan bir qrup kursantı Müzəffər Ali Baş Komandanın təşəbbüsü ilə yaradılmış və 44 günlük Vətən müharibəsində xalqımızın parlaq Zəfərinin və ordumuzun qəhrəmanlığının təcəssümü olan Hərbi Qənimətlər Parkı ilə tanış olublar.**







Tarixi zəfərin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edən və açıq səma altında salınan parkda Qarabağ uğrunda gedən döyüşlərdə Azərbaycan Ordusu tərəfindən düşməndən qənimət götürülmüş hərbi və zirehli texnikalar, avtomobillər və qoşqular, artilleriya qurğuları, silah-sursatlar və düşmənin müdafiə səddinin maketləri kursantlar tərəfindən böyük maraqla qarşılanıb.

# Məhkumların reinteqrasiyasında innovativ yanaşma

**Ölkə Prezidenti cənab İlham Əliyevin müasir çağırışlara uyğun islahatların, o cümlədən idarəetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə kadr islahatlarının aparılması, şəffaflığın və vətəndaş məmnunluğunun artırılması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tapşırıqlarının icrası Ədliyyə Nazirliyi tərəfindən diqqət mərkəzində saxlanılır.**



Bununla əlaqədar ədliyyə orqanlarında işin təkmilləşdirilməsi məqsədilə müvafiq struktur və kadr islahatları aparılıb, ədliyyə işçilərinin, o cümlədən penitensiar xidmət əməkdaşlarının məsuliyyət

hissi və tələbkarlıq artırılıb, sui-istifadə, korrupsiyaya şərait yaradan pozuntulara və digər nöqsanlara yol verən işçilər barəsində ciddi tədbirlər görülüb.

Belə ki, nazirlik tərəfindən aparılmış xidməti yoxlama nəticəsində qadın məhkumların saxlanıldığı cəzaçəkmə müəssisəsində aşkar olunmuş nöqsan və problemlər aradan qaldırılaraq kadr dəyişiklikləri aparılıb, müəssisənin rəhbərliyi yenilənib, işçi heyətlə məhkumlar arasında davranış qaydalarına, rejimə və nizam-intizama əməl edilməsi təmin olunub.

Eyni zamanda penitensiar infrastrukturun müasirləşdirilməsi çərçivəsində yeni, o cümlədən qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün müəssisələrin inşa olunaraq bu il istifadəyə verilməsi nəzərdə tutulur, mövcud olanlarda isə Penitensiar xidmət tərəfindən təmir-bərpa, o cümlədən müsbət psixoloji təsirə malik boya-abadlıq işləri aparılır.

Cəmiyyətin həssas təbəqəsi olan qadın və yeniyetmə məhkumların qayğı və problemləri ilə maraqlanılaraq onların hüquqlarının təminatı, islah prosesinin və asudə vaxtının səmərəli təşkili ilə bağlı sorğular keçirilib, həmçinin pandemiya ilə əlaqədar xüsusi karantin rejimi şəraitində yeniyetmə məhkumların valideynləri ilə ünsiyyət qurmaları üçün video-konfrans formatında görüşlər təşkil edilir. Bununla yanaşı, onların ayrı-ayrı ixtisaslara, peşə sahələrinə olan marağı öy-









rənilib. Bu prosesdə uzun illərdir səmərəli ictimai iştirakçılıq mexanizmi olan Ədliyyə naziri yanında İctimai Komitənin imkanlarından geniş istifadə olunub.

Bununla bağlı nazirlik tərəfindən məhkumların istəkləri nəzərə alınaraq bilik və bacarıqlarının artırılması, peşə hazırlığı ilə bağlı proqramlar, təlim-tədris kursları təşkil olunub. Bu da azadlığa buraxıldıqdan sonra məhkumların yeni yiyələndikləri peşələr hesabına məşğulluğuna, işlə təminatına, bütövlükdə azad cəmiyyətə daha tez uyğunlaşmasına imkan yaradır.

Bu məqsədlə ali təhsil müəssisələrinin professor-müəllim heyəti, tələbə-həmkarlar təşkilatları, vətəndaş cəmiyyəti institutları dəvət olunmaqla cəzaçəkmə müəssisə-

lərində çoxşaxəli, mühüm tərbiyəvi əhəmiyyət kəsb edən tədbirlər, xarici dil və müxtəlif peşə kursları təşkil olunub.

Azərbaycanın müasir tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsində xalqımızın Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazandığı Böyük Qələbəyə həsr olunan tədbirlərdə məhkumlar ölkəmizin hərbi-siyasi uğuru, xalqımızın vətənpərvərliyi, dövlətimiz və ordumuzla həmrəyliyi, dünya hərb tarixinə öz unikal əməliyyatları ilə düşən hərbçilərimizin qəhrəmanlığı barədə məlumatlandırılıb. Qələbə münasibətilə nazirlik tərəfindən hazırlanmış "Zəfər yürüşü" filmi nümayiş etdirilib.

Eyni zamanda dövlət başçısı tərəfindən elan olunmuş 2021-ci il "Nizami Gəncəvi İli" çərçivəsində dahi şair və mütəfəkkirin insanları əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığına həsr olunmuş tədbirlər keçirilib. Azərbaycan Dillər Universitetinin və Sumqayıt Dövlət Universitetinin müəllimləri dəvət olunmaqla məhkumlara humanizm,



ədalətlilik, qanunçuluq, milli təəssübkeşlik, dini və milli-mənəvi dəyərlərimiz mövzularında mühazirələr tədris olunub. Yeniyetmə məhkumlarla fakültativ məşğələlər, dil və kompüter kursları təşkil edilib.

Məhkumlara keyfiyyətli hüquqi yardımın göstərilməsi diqqətdə saxlanılaraq Vəkillər Kollegiyası ilə səmərəli əməkdaşlıq çərçivəsində Kollegiyanın Hüquqi Yardım və Tədris Mərkəzinin vəkilləri, habelə İnsan Hüquqları üzrə Birgə İşçi qrupunun üzvləri olan hüquq müdafiəçiləri tərəfindən cəzaçəkmə müəssisələrinə mütəmadi baş çəkilərək məhkumlarla görüşlər keçirilib, onların qayğı və problemləri ilə maraqlanılaraq hüquq və vəzifələri, cəmiyyətə yenidən inteqrasiyası və digər məsələlərlə bağlı müxtəlif pulsuz hüquqi yardım göstərilib.

Bununla yanaşı, "Ümidli Gələcək Sosial Təşəbbüslər" İctimai Birliyinin psixoloqları tərəfindən məhkumların sosial davranışı, emosional psixoloji vəziyyətin yaxşılaşdırılması, reabilitasiyası və s. mövzular üzrə mühazirələr keçirilib, onlarla psixoloji söhbətlər aparılıb.

Ədliyyə Nazirliyi tərəfindən bu istiqamətdə tədbirlər davam etdirilir.

# “Ədliyyə Nazirliyinin beynəlxalq fəaliyyəti” mövzusunda onlayn brifinq

**Ədliyyə Nazirliyi vətəndaşlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin artırılması istiqamətində tədbirləri davam etdirir.**

Vətəndaşların ədliyyə orqanlarına əlçatanlığının təmin olunması, əhalinin ədliyyə fəaliyyəti barədə məlumatlandırılması məqsədilə vətəndaş cəmiyyəti nümayəndələrinin, KİV-lərin, eləcə də Ədliyyə Nazirliyinin rəsmi saytlarının və sosial şəbəkələrdəki səhifələrinin imkanlarından geniş istifadə olunur. Bu baxımdan nazirliyin rəsmi Feysbuk səhifə-

sində ədliyyənin ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə canlı yayımların keçirilməsi də əhalinin hüquqi maarifləndirilməsi işində mühüm rol oynayır.

Bu istiqamətdə görülən tədbirlər çərçivəsində mayın 17-də "Ədliyyə Nazirliyinin beynəlxalq fəaliyyəti" mövzusunda növbəti onlayn brifinq keçirilib.

Brifinqdə nazirliyin Beynəlxalq əməkdaşlıq idarəsinin qrup rəhbəri Azər Cəfərov ekstradisiya, məhkumların verilməsi, eyni zamanda, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və s. məsələlərdən bəhs edib. Qeyd olunub ki, 40 ikitərəfli müqavilələrin, o cümlədən cinayət və mülki işlər üzrə hüquqi yardım, ekstradisiya, məhkumların verilməsi üzrə öhdəliklərin icrasını həyata keçirir, 33 ölkənin Ədliyyə nazirlikləri ilə ikitərəfli sazişlər çərçivəsində əməkdaşlıq edir, 17 çoxtərəfli konvensiya üzrə isə səlahiyyətli orqan qismində çıxış edir.




Brifinqdə məlumat verilib ki, Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq idarəsinin fəaliyyətinin əsas istiqamətlərindən biri beynəlxalq hüquqi əməkdaşlığın həyata keçirilməsidir. Vətən müharibəsi dövründə Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq idarəsi ölkəmizin apardığı haqlı mübarizəni beynəlxalq tərəfdaşlara çatdırmaq üçün öz səlahiyyətləri çərçivəsində bir sıra tədbirlər görüb. Bu dövrdə nazirlik tərəfindən 77 dövlətin Ədliyyə nazirliklərinə, 10 beynəlxalq təşkilata 400-dək məktub göndərilib. Məktublar Ermənistan tərəfinin törətdikləri müharibə cinayətləri və onların acı nəticələri ilə bağlı olub. Müharibə dövründə Ermənistan tərəfi həm uşaqlara, həm də mülki şəxslərə qarşı bir sıra cinayətlər törədib. Bütün bu cinayətlərlə bağlı ixtisaslaşmış qurumlara və xarici tərəfdaşlarımıza məktublar göndərilib və onlar məlumatlandırılıb. Ədliyyə Nazirliyi 140 ölkəni birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının rəhbərliyində, Beynəlxalq Prokurorlar Assosiasiyasında təmsil olunur. Müharibə dövründə bu təşkilatların rəhbərlərinə və üzvlərinə də məktublar göndərilib və ölkəmizlə bağlı həqiqətlər onların diqqətinə çatdırılıb.

Onlayn tədbirdə sosial şəbəkə istifadəçilərinin sualları cavablandırılıb.

# Ədliyyə Akademiyasında

## Vəkillər üçün təlimlərin açılışı

**Mayın 26-da Vəkillər Kollegiyası Hüquqi Yardım və Tədris Mərkəzi tərəfindən Vəkillər Kollegiyasının üzvləri üçün "Prosessual sənədlər və çağdaş tələblər" mövzusunda keçiriləcək cari təlimlərin açılış tədbiri keçirilib.**

Tədbirdə çıxış edən Vəkillər Kollegiyasının sədri Anar Bağırov vəkillərin, vəkilliyə namizədlərin tədrisində Ədliyyə Akademiyası ilə əməkdaşlığın yüksək səviyyədə qurulduğunu, gələcəkdə vəkillərin tədrisində Ədliyyə Akademiyasının bu sahədə təcrübəsindən yararlanmağın mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov birgə əməkdaşlığın səmərəsini qeyd edərək

Akademiya tərəfindən son 6 ay ərzində keçirilmiş vəkilliyə namizədlərin icbari təlimi, vəkillərin peşə hazırlığı və davamlı ixtisasartırma təlimləri barədə məlumat verib, Ədliyyə



Akademiyasının Kollegiya ilə vəkillərin tədrisi ilə yanaşı, pulsuz hüquqi yardımla bağlı təcrübələrin paylaşılmasında birgə əməkdaşlığın həyata keçiriləcəyini vurğulayıb.




Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzinin direktoru Şahmar Məmmədov Mərkəzin fəaliyyətindən bəhs edib, vəkillərin və vəkil köməkçilərinin tədrisinin prioritet olduğunu, vəkillər üçün keçiriləcək cari təlimlərin mövzusunun aktuallığını və vəkillərin gələcək fəaliyyətində faydasını qeyd edib.

## ◆ Mediasiya təlimçiləri üçün təlimlər keçirilib

**Avropa İttifaqının maliyyələşdirdiyi "Mübahisələrin alternativ həlli mexanizmlərinin tətbiqində və əhaliyə hüquqi yardım xidmətlərinin göstərilməsində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin institutional potensialının artırılması" layihəsi çərçivəsində distant formada Adult Learning (Böyüklərin Öyrədilməsi) təlimləri keçirilib.**




Ötən il Mediasiya Təlimçilərinin təlimini müvəffəqiyyətlə başa vurmuş təlimçilərin iştirak etdikləri tədbirlərin məqsədi təlimlər zamanı yerli təlimçilərin üzləşdikləri problemləri aradan qaldırmaq və onları həll etmək üçün potensial üsulları müəyyənləşdirmək olub.

Təlim müddətində Layihə üzrə beynəlxalq ekspertlər Adi Gavrilla, Leonardo Durso və Ruslan Mirzəyev tərəfindən yerli təlimçilərin qarşılaşdıqları problemlər, mediasiya təlimində böyüklərin öyrənmə və tətbiqetmə prinsipləri, müasir mediasiya təliminin təşkili texnikaları: "Əks Dizayn Modeli", kiçik qruplarda iş və baza mediasiya təliminin yenilənməsi məsələləri barədə çıxışlar edilib, fikir mübadiləsi aparılıb.

Həmçinin adıçəkilən layihədə ixtisaslaşmış məhkəmələrin institutional potensialının artırılması üzrə əsas ekspert Mark Segal tərəfindən "Mediasiyada və mediasiya təlimində bədən dilinin əsas rolu" mövzusunda təqdimat edib, iştirakçıların bədən dili ilə bağlı təlimçilik metodologiyası təcrübələri paylaşılıb.

Distant formada keçirilən tədbirdə yerli təlimçilərin rastlaşdıqları çətinliklərin həlli məsələləri mövzularında təqdimatlar edilib və gələcək mediasiya təlimlərinin təkmilləşdirilməsi məsələləri müzakirə olunub.

# Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzindədir

**Mayın 6-da Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzi tərəfindən Sumqayıt regional ədliyyə idarəsi ilə birlikdə Abşeron bələdiyyələrinin vəzifəli şəxslərinin iştirakı ilə bələdiyyələrin qarşılaşdıqları aktual problemlər və onların həlli yollarına həsr olunmuş videokonfrans keçirilib.**



Tədbiri giriş sözü ilə açan Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədov konfransın Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ərəfəsinə təsadüf etməsini vurğulayaraq görkəmli dövlət xadiminin yerli özünüidarəetmə orqanlarının yaradılmasındakı əvəzsiz xidmətlərindən bəhs edib. Qeyd olunub ki, ümummilli lider daima Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyıb, onu bir dövlət və xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarıb, müasir Azərbaycanın bugünkü həqiqətlərinin, işıqlı sabahının etibarlı bünövrəsini yaradıb. Təcrübəli siyasi və dövlət xadimi Heydər Əliyev vətəndaşların dövlət idarəetməsində iştirakının ən vacib ünsürü kimi yerli özünüidarəetməyə də xüsusi əhəmiyyət verib. Yerli özünüidarəetməni ölkəmizdə gedən demokratikləşmə prosesinin mühüm bir sahəsi kimi dəyərləndirən ümummilli lider bələdiyyələrlə bağlı dövlət siyasətinin əsas istiqamətlərini də müəyyən edərək onun inkişafına xüsusi diqqət və qayğı göstərib.

Vurğulanıb ki, Heydər Əliyev siyasi irsinin layiqli davamçısı ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan demokratik və hüquqi dövlət quruculuğunun, iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşamaqdadır. Belə bir dövrdə bələdiyyələrin yerli səviyyədə cəmiyyət həyatının müxtəlif sahələrində iştiraklarının genişləndirilməsi, fəaliyyətlərini ölkədə həyata keçirilən islahatlar zəminində daha mütəşəkkil qurmaları qarşıda duran əsas məqsədlərdəndir. Bu istiqamətində Ədliyyə Nazirliyi də öz fəaliyyət istiqamətlərinə uyğun olaraq bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək məqsədilə onlarla metodoloji işi davam etdirir.

Konfransda Bələdiyyələrlə iş mərkəzinin əməkdaşları bələdiyyələrin maliyyə vəziyyətinin yaxşılaşdırılması istiqamətində mövcud problemlər və həlli yolları ilə bağlı çıxışlar ediblər. Debitor borcların həlli yolları, ödənişdən yayınan borclu şəxslərlə bağlı pul tələbinə dair bələdiyyələrin inzibati aktlarının qəbulu və məcburi icraya yönəldilməsi tədbirləri, yerli vergi və ödənişlərin uçotu, hesablanması və yığımında olan çatışmazlıqlar, onların aradan qaldırılması yolları, həmçinin bu sahələrdə qanunvericiliyin tələbləri izah edilib, o cümlədən borclu şəxslərlə izahat işinin aparılması və ictimai qınaq kimi təsirli vasitələrdən istifadə olunması tövsiyə olunub. Eyni zamanda konfrans iştirakçıları göstərilən problemlərlə bağlı müsbət iş təcrübəsi olan bələdiyyələr tərəfindən həyata keçirilən tədbirlər barədə məlumatlandırılıb.

Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb, bir sıra məsələlərlə bağlı bələdiyyə sədrlərinin təklifləri dinlənilib, bələdiyyə-vətəndaş münasibətlərin düzgün qurulması, o cümlədən vətəndaş müraciətlərinə baxılmasına həssaslıqla yanaşılması, ictimai etimadın artırılması istiqamətində tədbirlər görülməsi, fəaliyyətdə hesabatlılıq və şəffaflığa əməl olunması barədə tövsiyələr verilib.

# Bələdiyyələrdə Gənclərlə iş və idman komissiyasının işinin gücləndirilməsi yolları müzakirə edilib

**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin, Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının birgə təşkilatçılığı və bələdiyyələrin gənc üzvlərdən ibarət təmsilçilərinin iştirakı ilə "Bələdiyyələrdə Gənclərlə iş və idman komissiyasının işinin gücləndirilməsi" mövzusunda videokonfrans keçirilib.**




Tədbirin açılışında Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin rəis müavini Elmin Həsənov, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının icraçı katibi Tofiq Həsənov ölkə üzrə son bələdiyyə seçkilərindən sonra 40 faizə yaxın bələdiyyə üzvünün fəaliyyət göstərməsini, onların fəallığının artırılması məqsədilə onlayn görüşlərin mütəmadi keçirildiyini, Gənclərlə iş və idman komissiyasının yaradılması üçün bu ilin martında Bələdiyyələrlə İş Mərkəzi tərəfindən bütün bələdiyyələrə tövsiyə məktubunun göndərilməsini və həmin komissiyaların yaradılması prosesinin davam etdiyini bildiriblər.

Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Vüqar İskəndərov, Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü Ramin Məmmədov, Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyasının sədri Hümbət Hüseynov videokonfransda çıxış edərək Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində hər bir azərbaycanlının, xüsusən də gənclərin milli birlik nümayiş etdirməsindən danışıblar. Çıxışlarda dövlətimizin başçısının yürütdüyü çoxşaxəli gənclər siyasəti nəticəsində əldə olunan nailiyyətlərdən, həmçinin bələdiyyə üzvlərinin qanunvericilikdə nəzərdə tutulan hüquq və vəzifələrin gənclər tərəfindən daha səmərəli yerinə yetirilməsinin vacibliyindən danışılıb, yaradılmış praktik komissiyaların işinin gücləndirilməsi ilə bağlı praktik təkliflər irəli sürülüb.

"İrəli" İctimai Birliyinin idarə heyətinin sədri Şahin Rəhmanlı, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Pərviz Mirələmli təmsil olunduqları qurumların fəaliyyəti barədə məlumat verib, gələcəkdə yerli özünüidarəetmə sahəsində çalışan gənc bələdiyyə üzvlərinin reallaşacaq yeni layihələrdə iştirakları ilə bağlı təkliflərini səsləndiriblər.

Onlayn tədbirdə Ankara şəhərinin Etimesqut bələdiyyəsinin Gənclik Şurasının sədri Erhan Göksu Türkiyədə, Nərimanov bələdiyyəsinin gənclər komissiyasının sədri, Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin üzvü Samirə Hüseynova isə bir sıra Avropa ölkələrində yerli özünüidarəetmədə gənclərin

və müvafiq komissiyaların iş təcrübəsindən danışıblar.

Səbail bələdiyyəsinin komissiya sədri Pərvin Nəcəfova, Şirvan bələdiyyəsinin komissiya sədri, 44 günlük Vətən müharibəsinin iştirakçısı Cəlal Əzizzadə təmsil olunduqları bələdiyyələrdə gənclərlə aparılan tədbirlər barədə məlumat verib, yeni layihələrin reallaşması üçün aidiyyəti qurumlarla əməkdaşlığın artırılmasının zəruriliyini qeyd ediblər.

Sonra mövzu ətrafında müzakirələr aparılıb və konfrans iştirakçılarını maraqlandıran suallara aydınlıq gətirilib.

Yekunda Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi və Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyaları tərəfindən yeni komissiyaların işinin gücləndirilməsi məqsədilə belə maarifləndirici tədbirlərin davamlı olaraq keçirilməsinin vacibliyi vurğulanıb.

# Bələdiyyələrin hüquqi maarifləndirilməsi üzrə tədbirlər davam etdirilir

**Bələdiyyə üzvlərinin hüquqi biliklərinin artırılmasına kömək məqsədilə Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzi tərəfindən Bakı şəhərində fəaliyyət göstərən bələdiyyələrin sədrləri və üzvləri üçün ardıcıl seminar-müşavirələr keçirilir.**



Bələdiyyələrin hüquqi maarifləndirilməsi məqsədilə keçirilən tədbirlərdə "Debitor borcların həlli yolları, ödənişdən yayınan borclu şəxslərlə bağlı pul tələbinə dair bələdiyyələrin inzibati aktlarının qəbulu və məcburi icraya yönəldilməsi ilə əlaqədar qanunvericiliyin tələbləri, borclu şəxslərlə izahat işinin aparılması və ictimai qınaq kimi təsirli vasitələrdən istifadə olunması", "Yerli özünüidarəetmədə müasir İKT imkanlarından, o cümlədən Bələdiyyələrlə iş portalının ilkin versiyasından səmərəli istifadə olunması. Bələdiyyələrin rəsmi internet və sosial şəbəkədə səhifələrinin açılması və bu səhifələrdə əhalinin görülən işlər barədə məlumatlandırılması" və "Bələdiyyələrin işində şəffaflığın artırılması, bələdiyyələrin hesabatları barədə qanunvericiliyin tələbləri" mövzuları tədris olunub.

Müşavirələrdə gündəlikdə nəzərdə tutulan məsələlər üzrə qanunvericiliyin tələbləri və bələdiyyələrin üzərinə düşən vəzifələr barədə ətraflı məlumat verilib, iştirakçıların sualları cavablandırılıb.

## Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. 1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir.

Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə qərara alıram:

1. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 may 2021-ci il*
*N 2632*

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 213; 2001, N 3, maddə 143, N 6, maddə 362, N 11, maddələr 672, 679, N 12, maddə 731; 2002, N 1, maddə 2, N 5, maddə 241, N 6, maddə 328; 2003, N 1, maddələr 9, 23; 2004, N 1, maddə 10, N 2, maddə 57, N 3, maddə 133, N 6, maddə 413, N 7, maddə 505, N 9, maddə 672, N 12, maddə 981; 2005, N 3, maddə 151, N 4, maddə 278, N 7, maddə 560, N 10, maddə 874, N 11, maddə 1001, N 12, maddə 1094; 2006, N 3, maddələr 220,

222, N 5, maddə 385, N 11, maddə 923, N 12, maddələr 1004, 1025, 1030; 2007, N 5, maddələr 401, 437, N 6, maddə 560, N 8, maddə 756, N 11, maddələr 1049, 1053; 2008, N 3, maddə 156, N 7, maddələr 600, 602, N 10, maddə 887, N 11, maddə 960; 2009, N 2, maddə 48, N 5, maddə 294, N 6, maddə 399, N 12, maddələr 949, 969; 2010, N 2, maddələr 70, 75, N 4, maddə 275; 2011, N 1, maddə 11, N 2, maddələr 70, 71, N 6, maddə 464, N 7, maddə 598; 2012, N 11, maddə 1054; 2013, N 2, maddələr 89, 101, N 11, maddə 1268; 2014, N 2, maddə 92, N 10, maddə 1162, N 11, maddə 1339, N 12, maddə 1527; 2015, N 2, maddə 97, N 3, maddə 250, N 6, maddə 680; 2016, N 2 (I kitab), maddələr 190, 201, N 5, maddə 847, N 11, maddə 1767; 2017, N 6, maddələr 1031, 1048, N 12 (I kitab), maddələr 2187, 2189; 2018, N 1, maddə 13, N 6, maddə 1155, N 7 (I kitab), maddələr 1380, 1408, N 12 (I kitab), maddə 2532; 2019, N 1, maddə 35, N 4, maddə 570, N 5, maddələr 796, 804, N 7, maddə 1182, N 8, maddə 1380; 2020, N 1, maddə 1, N 5, maddə 522, N 7, maddə 832, N 11, maddələr 1322, 1332, 1335; Azərbaycan Respublikasının 2020-ci il 20 noyabr tarixli 199-VIQD nömrəli və 18 dekabr tarixli 217-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci maddənin 3-cü hissəsinin beşinci abzası altıncı abzas hesab olunsun və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"əmək münasibətlərinin mülki hüquqi müqavilələrlə rəsmiləşdirilməsinin yolverilməzliyi;".

2. 3-cü maddə üzrə:

2.1. adı aşağıdakı redaksiyada verilsin:

"Maddə 3. Bu Məcəllədə istifadə edilən əsas anlayışlar";

2.2. aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Əmək münasibətləri - əmək qanunvericiliyində, kollektiv müqavilə və sazişlərdə nəzərdə tutulmuş öhdəliklərə uyğun olaraq işəgötürənlə qarşılıqlı razılıq əsasında müəyyən edilən iş yerində işçi tərəfindən onun işə qəbul (təyin) edildiyi, seçildiyi, bərpa olunduğu peşə və ya vəzifə üzrə əmək funksiyasının əməkhaqqı ödənilməklə şəxsən yerinə yetirilməsinə, daxili intizam qaydalarına riayət edilməsinə, işəgötürən tərəfindən işçinin əmək şəraitinin, təminatlarının və əməyinin mühafizəsinin təmin edilməsinə, habelə bu Məcəllənin prinsiplərinə əsaslanan münasibətlərdir.".

3. 7-ci maddəyə aşağıdakı məzmunda 2-3-cü və 2-4-cü hissələr əlavə edilsin:

"2-3. Aşağıdakı hallarda tərəflər arasında yaranan münasibətlər əmək münasibətləri hesab edilir və onların mülki hüquqi müqavilələrlə rəsmiləşdirilməsinə yol verilmir:

2-3.1. müqavilənin məzmunu bu Məcəllənin 43-cü maddəsinin 2-ci hissəsinə, forması isə bu Məcəllənin 44-cü maddəsinin 2-ci hissəsi ilə müəyyən edilmiş formaya uyğun olduqda;

2-3.2. bu Məcəllənin 48-ci maddəsinə uyğun olaraq tərəflər arasında münasibətlərin rəsmiləşdirilməsi və müvafiq qeydlərin aparılması üçün əmək kitabçası təqdim edildikdə;

2-3.3. tərəflər arasında münasibətlər müvafiq peşə və ya vəzifəyə qəbul (təyin) edilmə, o cümlədən ödənişli seçkili və ya təyinatlı, habelə müsabiqə əsasında vəzifəni tutma, kvota üzrə işə düzəlmə, məhkəmənin qərarı ilə işə bərpa olunma ilə bağlı yarandıqda;

2-3.4. tərəflər arasında münasibətlər işəgötürənin əsas fəaliyyət sahəsinə aid işlərin (xidmətlərin) yerinə yetirilməsi ilə bağlı yarandıqda;

2-3.5. tərəflər arasında münasibətlər işlərin (xidmətlərin) əvəzçilik və ya müvəqqəti əvəzetmə qaydasında yerinə yetirilməsi ilə bağlı yarandıqda;

2-3.6. yerinə yetirilməsi şərtlərinə görə iş (xidmət) müvəqqəti xarakterə malik olduğu halda müqavilənin müddətinin uzadılması bu Məcəllənin 73-cü maddəsinə uyğun tənzimləndikdə;

2-3.7. yerinə yetirilən işə (xidmətə) görə ödənilən haqqın tərkibi bu Məcəllənin 157-ci maddəsinin 3-cü hissəsində göstərilən aylıq tarif (vəzifə) maaşından, əlavədən və mükafatdan ibarət olduqda;

2-3.8. müqavilədə bu Məcəllənin 10-cu, 77-ci, 112-ci, 179-cu və 186-cı maddələrində nəzərdə tutulmuş məsələlərin tənzimlənməsi nəzərdə tutulduqda.

2-4. Bu maddənin 2-3-cü hissəsində nəzərdə tutulan hallardan biri aşkar edildiyi gündən bu maddənin 2-ci hissəsinə uyğun olaraq yazılı əmək müqaviləsi bağlanmalıdır.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 2 aprel 2021-ci il*
*N 286-VIQD*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 44, N 3, maddələr 374, 389, N 4, maddələr 579, 581, 587, 595, N 5, maddələr 791, 800, 803, 804, 813, N 6, maddələr 992, 998, 1007, N 7, maddə 1193, N 8, maddələr 1364, 1367, 1368, 1381,1383, N 11, maddələr 1682, 1686, 1696, N 12, maddələr 1883, 1900; 2020, N 3, maddə 222, N 5, maddələr 505, 515, 519, N 6, maddələr 670, 672, 681, N 7, maddələr 838, 841, 846, 854, N 8, maddələr 1008, 1011, N 9, maddə 1138, N 11, maddələr 1332, 1333, 1336, N 12 (I kitab), maddələr 1432, 1440) aşağıdakı dəyişikliklər edilsin:

1. 18.5-ci maddədə "Hüquqi" sözü "Bu Məcəllənin 127-4.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, hüquqi" sözləri ilə əvəz edilsin.

2. 18.6-cı maddədə "Səlahiyyətli" sözü "Bu Məcəllənin 127-4.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, səlahiyyətli" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 57.7-ci maddə əlavə edilsin:

"57.7. Bu Məcəllənin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar aşağıdakı hallarda da rəsmi qaydada verilmiş hesab olunur:

57.7.1. inzibati xəta törətmiş şəxsin elektron kabinetində olan mobil telefon nömrəsinə inzibati xəta haqqında bu Məcəllənin 127-5.1.2-ci maddəsində nəzərdə tutulan qaydada SMS məlumat çatdırıldığı vaxtdan;

57.7.2. inzibati xəta törətmiş şəxs bu Məcəllənin 127-5.1.1-ci maddəsində nəzərdə tutulan qaydada onun elektron kabinetinə yerləşdirilmiş inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar və onun əlavələri ilə tanış olduğu vaxtdan (elektron kabinetdə mobil telefon nömrəsi olmadığı halda).".

4. 76.1-ci maddənin ikinci cümləsinə "göstəriciləri ilə" sözlərindən sonra ", müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində, habelə digər dövlət informasiya sistemlərində (ehtiyatlarında) aşkar olunan məlumatlarla" sözləri əlavə edilsin.

5. Aşağıdakı məzmunda 81-1-ci maddə əlavə edilsin:

**"Maddə 81-1 Dövlət informasiya sistemlərinin (ehtiyatlarının) məlumatları**

81-1.1. Bu Məcəllənin 191.2-ci, 192.1-ci, 192.3-cü, 194-cü, 195.2-ci, 469.2-ci, 540.1-ci və 540.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətaların aşkar edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin, habelə digər dövlət informasiya sistemlərinin (ehtiyatlarının) məlumatlarından istifadə

edilir.

81-1.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin, habelə digər dövlət informasiya sistemlərinin (ehtiyatlarının) məlumatları inzibati xəta haqqında elektron protokolda və ya inzibati tənbeh vermə haqqında elektron qərarda qeyd edilir.".

6. 99.1.1-ci maddəyə "köməyi" sözündən sonra ", eləcə də müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi, habelə digər dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsi" sözləri əlavə edilsin.

7. Aşağıdakı məzmunda 16-1-ci fəsil əlavə edilsin:

**" FƏSİL 16-1**

Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar olan inzibati xətalarla bağlı işlərə müvafiq informasiya sistemlərindən (ehtiyatlarından) istifadə edilməklə baxılmanın xüsusiyyətləri

**Maddə 127-3. Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar olan inzibati xətalarla bağlı işlərə baxılmanın ümumi qaydası**

Bu Məcəllənin 191.2-ci, 192.1-ci, 192.3-cü, 194-cü, 195.2-ci, 469.2-ci, 540.1-ci və 540.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə, bu fəsillə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllə ilə müəyyən edilmiş qaydada baxılır.

**Maddə 127-4. İnzibati xəta müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi, habelə digər dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edildikdə icraatın aparılması qaydası**

127-4.1. Bu Məcəllənin 191.2-ci, 192.1-ci, 192.3-cü, 194-cü, 195.2-ci, 469.2-ci, 540.1-ci və 540.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi, habelə digər dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edildikdə, inzibati xətanı törətmiş şəxsin iştirakı olmadan real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada elektron sənəd şəklində hüquqi şəxslər, o cümlədən onların vəzifəli şəxsləri barəsində inzibati xəta haqqında elektron protokol tərtib olunur, fiziki və vəzifəli şəxslər (hüquqi şəxs barəsində elektron protokol tərtib edilmədiyi halda) barəsində isə inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq səlahiyyətli əməkdaşının gücləndirilmiş elektron imzası ilə təsdiqlənir. Təsdiq edilmiş həmin protokol və ya qərar real vaxt rejimində elektron qaydada məlumatlar əlavə edilməklə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilir.

127-4.2. İnzibati xəta haqqında elektron protokolda aşağıdakı məlumatlar göstərilir:

127-4.2.1. protokolun tərtib edildiyi tarix və vaxt;

127-4.2.2. inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan orqanın (qurumun) və həmin protokolu tərtib etmək üçün istifadə edilən dövlət informasiya sisteminin (ehtiyatının) adı;

127-4.2.3. inzibati xətanın törədilməsi ilə bağlı müəyyən edilən (aşkar edilən) məlumatlar;

127-4.2.4. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan hüquqi şəxs haqqında məlumatlar (hüquqi şəxsin adı, VÖEN-i və hüquqi ünvanı);

127-4.2.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi və həmin maddə üzrə cərimənin məbləği;

127-4.2.6. bu Məcəllənin 127-4.5-ci və 127-4.6-cı maddələrinin izahı.

127-4.3. İnzibati tənbeh vermə haqqında elektron qərarda aşağıdakı məlumatlar göstərilir:

127-4.3.1.qərarın tərtib edildiyi tarix və vaxt;

127-4.3.2. inzibati xətalar haqqında işlər üzrə qərar qəbul etmək səlahiyyəti olan orqanın (qurumun) və həmin qərarı tərtib etmək üçün istifadə edilən dövlət informasiya sisteminin (ehtiyatının) adı;

127-4.3.3. inzibati xətanın törədilməsi ilə bağlı müəyyən edilən (aşkar olunan) məlumatlar;

127-4.3.4. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki və ya vəzifəli şəxs haqqında məlumatlar (adı, soyadı, atasının adı, FİN-i və yaşadığı ünvan, vəzifəli şəxsə münasibətdə habelə vəzifəsi);

127-4.3.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi;

127-4.3.6. inzibati cərimənin

məbləği və ödənilməsi qaydası barədə məlumatlar;

127-4.3.7. inzibati tənbeh vermə haqqında elektron qərardan bu Məcəllənin 127-4.6-cı maddəsinə uyğun olaraq şikayətin verilməsi müddəti və qaydası.

127-4.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin, habelə digər dövlət informasiya sistemlərinin (ehtiyatlarının) məlumatları inzibati xəta haqqında iş üzrə icraat başa çatanadək və hər bir halda inzibati xəta haqqında iş üzrə qərar barədə bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırıldığı vaxtdan üç aydan az olmayan müddətdə saxlanılmalıdır.

127-4.5. Barəsində bu Məcəllənin 127-4.1-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında elektron protokol tərtib edilmiş hüquqi şəxs, o cümlədən onun vəzifəli şəxsi burada qeyd olunan inzibati cəriməni həmin protokol ona bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində ödədikdə protokolla razılaşmış olur və həmin protokol eyni məzmunlu inzibati tənbeh vermə haqqında elektron qərar hesab edilir.

127-4.6. Barəsində bu Məcəllənin 127-4.1-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında elektron protokol tərtib edilmiş hüquqi şəxs bu Məcəllənin 127-4.5-ci maddəsində nəzərdə tutulmuş müddətdə cəriməni ödəmədikdə həmin protokol baxılması üçün bir gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən məhkəməyə göndərilir.

127-4.7. Bu Məcəllənin 127-4.1-ci maddəsinə əsasən inzibati xəta haqqında elektron protokol tərtib edildikdə və yaxud inzibati tənbeh vermə haqqında elektron qərar çıxarıldıqda inzibati cərimənin məbləği həmin inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsinin sanksiyasında nəzərdə tutulan cərimənin aşağı həddində müəyyən olunur.

**Maddə 127-5. İnzibati xəta haqqında protokol və inzibati xəta haqqında iş üzrə qərar barədə məlumatlandırma**

127-5.1. Bu Məcəllənin 127-4.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətaları törətmiş şəxs inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar barədə aşağıdakı qaydada məlumatlandırılır:

127-5.1.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi inzibati xəta haqqında elektron protokolu və ya inzibati xəta haqqında iş üzrə qərarı və onların əlavələrini barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin elektron kabinetində dərhal yerləşdirir və elektron ünvanına (olduğu halda) göndərir;

127-5.1.2. eyni zamanda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi şəxsin elektron kabinetində olan mobil telefon nömrəsinə inzibati xəta törətməsi, törətdiyi xətanın qısa məzmunu, xətanın törədildiyi yer və vaxt, bu Məcəllənin hansı maddəsinə əsasən inzibati məsuliyyətə cəlb olunması, cərimənin məbləği, inzibati xəta haqqında elektron protokolun və ya inzibati xəta haqqında iş üzrə qərarın nömrəsi, həmin sənədlə və ona əlavə edilmiş materiallarla tanış ola biləcəyi elektron kabinetin internet ünvanı və daxilolma qaydası barədə ödənişsiz SMS məlumatı dərhal göndərir;

127-5.1.3. inzibati tənbeh vermə haqqında elektron qərar əlavə edilmiş materiallarla birlikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi tərəfindən kağız daşıyıcıda çap olunaraq, bu Məcəllənin 57.1-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verilməsi üçün iki gün ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.

127-5.2. İnternet informasiya resursunda yaradılmış elektron kabinetdə şəxsin hansı tarixdə inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar barədə bu Məcəllənin 127-5.1.1 - 127-5.1.3-cü maddələrində nəzərdə tutulmuş qaydada məlumatlandırılması haqqında qeyd yerləşdirilməlidir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi bu Məcəllənin 127-5.1.2-ci maddəsində nəzərdə tutulmuş SMS məlumatın şəxsə çatdırıldığı vaxt barədə və bu Məcəllənin 127-5.1.1-ci maddəsində nəzərdə tutulan qaydada onun elektron kabinetinə yerləşdirilmiş inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar və onların əlavələri ilə tanış olduğu vaxt barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərməli, həmçinin həmin məlumatları şəxsin elektron kabinetinə yerləşdirməli və onun

elektron ünvanına (olduğu halda) göndərməlidir.

127-5.3. İnzibati xəta haqqında elektron protokolun və ya inzibati tənbeh vermə haqqında elektron qərarın bu Məcəllənin 57.1-ci maddəsində nəzərdə tutulmuş qaydada "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sifarişli poçt göndərişi vasitəsilə rəsmi çatdırılması barədə məlumatlar bir gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilir.

127-5.4. Barəsində inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar tərtib edilmiş şəxs bu Məcəllənin 57-ci maddəsi ilə müəyyən edilmiş qaydada məlumatlandırıldığı vaxtdan təyin olunmuş cəriməni bank, poçt, plastik kart və ya internet vasitəsilə ödəyə bilər.

**Maddə 127-6. İnzibati tənbeh vermə haqqında elektron qərardan şikayətə baxılma qaydası**

127-6.1. Barəsində bu Məcəllənin 127-4.1-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılmış fiziki şəxs qərarla razılaşmadığı hallarda həmin qərar ona bu Məcəllənin 57-ci maddəsi ilə müəyyən olunmuş rəsmi qaydada verildiyi vaxtdan iyirmi gün müddətində yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və ya məhkəməyə şikayət verə bilər. Şikayət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə və ya şəxsən verilə, yaxud poçt vasitəsilə göndərilə bilər.

127-6.2. Yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) inzibati xəta haqqında iş üzrə qərardan şikayət verildikdə, yuxarı səlahiyyətli orqan (vəzifəli şəxs) araşdırma aparmaqla qərarın ləğv edilməsi üçün əsaslar müəyyən etdikdə, inzibati xəta haqqında iş üzrə elektron qərarı ləğv edir, belə əsaslar müəyyən olunmadıqda isə inzibati xəta haqqında iş üzrə elektron qərarın dəyişdirilmədən saxlanılması barədə qərar qəbul edilir.

127-6.3. Bu Məcəllənin 127-6.2-ci maddəsində nəzərdə tutulmuş qərarlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində yerləşdirilir və barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə həmin qərar barədə bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumat verilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 aprel 2021-ci il
N287-VIQD

## "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 18; 2001, N 11, maddə 687, N 12, maddə 731; 2003, N 1, maddə 23; 2004, N 2, maddə 57, N 3, maddə 133; 2006, N 11, maddə 928; 2007, N 1, maddə 4, N 7, maddə 712; 2010, N 7, maddə 591; 2011, N 6, maddə 477, N 7, maddə 584, N 12, maddə 1092; 2013, N 7, maddə 788; 2015, N 3, maddə 252; 2016, N 6, maddə 991; 2018, N 7 (I kitab), maddə 1423; 2020, N 6, maddə 678, N 7, maddə 856, N 8, maddə 1007) 11-ci maddəsinin beşinci hissəsinin ikinci cümləsinə "yerinə yetirilməsinə" sözlərindən sonra "müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada" sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 23 aprel 2021-ci il*
*N 299-VIQD*

# QANUNÇULUQ

hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb
səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 14 Tiraj:1000 ədəd